


## Nazirlər Laçın yolu ətrafındakı vəziyyəti müzakirə etdilər

*Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla Bakıda səfərdə olan Avropa və xarici işlər naziri Ketrin Kolonnan arasında görüş keçirilib. "Unikal" xəbər verir ki, C.Bayramov həmkarını Xarici İşlər Nazirliyinin binası önündə qarşılayıb. Tərəflər arasında təkbətək görüş keçirilib. Sonra Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Fransanın Avropa və xarici işlər...*

Səh.3


# UNİKAL

№16 (2150) 28 aprel 2023-cü il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az

unikal-1@mail.ru




## Oqtay Əsədovun şirkəti ilə bağlı böyük müəmma

### Eks-spiker biznesdə üzünü Rusiyadan Avropaya çevirir

*Yola salmaq üzrə olduğumuz həftə deputat Oqtay Əsədovun həyat yoldaşı Zemfira Əsədovaya məxsus olan və Rusiyada fəaliyyət göstərən "Arizarum Qrup" şirkətinin 2022-ci ildə əldə etdiyi gəlirlər açıqlandı. Bu ölkənin müvafiq rəsmi qurumlarının açıqladığı məlumatlardan aydın olub ki, adıçəkilən şirkət "Arizarum Qrup" ötən il 13 milyon 924 min rubl (291 min manat) gəlir əldə edib. Qeyd edək ki, əvvəlki - 2021-ci illə müqayisədə "Arizarum Qrup"un gəliri 1% və ya 121 min rubl azalıb (yeniavaz.com). Ümumiyyətlə son 6 ildir "Arizarum Qrup"un gəlirlərində ciddi dəyişiklik olmur:*

Səh.8



Səh.9

## Tərəflər yenidən masaya qayıdır:
## Yol sərhəd-buraxılış məntəqəsindən keçəcək

## "Laçın yolunda nəzarət-keçid məntəqəsinin yaradılması tarixi hadisədir"



*Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, deputat Vüqar Bayramov "Unikal"a müsahibə verib. O, 2023-cü ilin dövlət büdcəsində artırılması nəzərdə tutulan vəsaitin hansı sahələrə ayrılacağından, Laçın-Xankəndi yolunun başlanğıcında...*

Səh.4

## "Mətbuatın sürətli inkişafı Heydər Əliyevin adı ilə bağlıdır" - Əhməd İsmayılov




*"Bu gün biz Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə media nümayəndələrinin iştirakı ilə ağacəkmə aksiyası keçiririk. Gördüyünüz kimi, Azərbaycanın aparıcı media subyektlərinin təmsilçiləri böyük həvəslə aksiyada iştirak edirlər".*

Səh.4

## Azərbaycanda hüquqi dövlətin qurucusu



*İnsan hüquqlarının qorunması, təmin olunması istiqamətində ölkəmiz uğurla addımlayır. Azərbaycan artıq dünyada müstəqil, hüquqi və demokratik dövlət kimi tanınır. Azərbaycanda hüquqi dövlətin qurulması müstəqillik tariximizlə səsləşir. Azərbaycan müstəqillik əldə etdikdən sonra insan hüquq və azadlıqlarının...*

Səh.11

# Elza ilə kamança ifaçısı arasında borc qalmaqalı: "İnsanlıqdan xəbəri yoxdur"



***Xəbər verdiyimiz kimi, kamança ifaçısı Elnur Salahov martın 28-də konsert proqramı ilə çıxış edən Əməkdar artist Elza Seyidcahandan şikayət edib. Elnur iddia edib ki, müğənni ona konsertindən borclu qalıb.***

"Unikal" bizim.media-ya istiandən xəbər verir ki, sözügedən qalmaqallı olaya həftələr sonra Elza qonaq olduğu "Həyat tərzi" verilişində aydınlıq gətirib.

Əməkdar artisti bildirib ki, o, kamança ifaçısının pulunu ödəyib: "Konsertdən sonra borca düşdüm. Borclarımı ödəməyə çalışıram. Elə dostlarım var ki, onlar məndən təmənna güdməyiblər. Çünki özümdə eləyəm. Amma bir balaca istedadı olanlar var ki, insanlıqdan xəbərləri belə yoxdur. Onlar qanmaz insanlardır. Deyirlər ki, bunun mənə fərqi yoxdur. Birinin də üstünə beşin qoyub, bizdən istifadə edirlər. Bu layihələrim tarixidir. Yəni layihələrimdə kim iştirak edirsə, düşür tarixə. Çünki orada təsadüfü mövzulara toxunmuram.

Musiqiçilərin çoxu deyirlər ki, sizinlə belə bir tarixi layihədə iştirak etməkdən fəxr edirik. Amma bəzi insanlar var ki, onlar sənət fədailəri deyillər, sənətin nə olduğunu başa düşmürlər. Bu dəfə də səbrsiz insanlar oldu. Onların özləri layihəmdə olmaqları üçün can atmışdılar. Mən də gənc musiqiçinin qəlbinə dəyməmək üçün, iştirakını qəbul etmişdim. Sonradan görürəm ki, sənətkar musiqiçilər çəkiliblər kənara ki, birdən onlara ödəniş edərəm. Bu isə gəlib məndən ödənişi nə zaman edəcəyimi soruşur. Deyir ki, utanırdım deməyə....Cavab verirəm ki, utanırdınsa, demə, vacib deyil ki... Heç demə bunu".

# Niyam: "Aynur oxuyanda mən "Havayka" köynəkdə Masallıda gəzirdim"

***Müğənni Niyam Salami hazırda küsülü olan duet ortağı Aynur Dadaşova ilə münasibətlərindən söz açıb.***

"Unikal" bizim media-ya istinadən xəbər verir ki, sənətçi qonaq olduğu "Günaydın, Azərbaycan!" səhər şousunda xanım həmkarı ilə dostluqlarının bitməsini aralarındakı iş müqavilələrinin bitməsi ilə "ört-basdır" edib.

"Aynur Dadaşova uşaq olsaydı, əlindən tutub harasa aparardım. Aynur Dadaşova oxuyanda mən "Havayka" köynəkdə Masallıda gəzirdim. Aynurla müqaviləmiz bitdi. 50 il ailəli olan, uşaqları əsgər gedən insanlar da ayrılırlar. Deyirlər ki, münasibətimiz düzgün formalaşmadı. Elə də biz", - deyə Niyam vurğulayıb.



Qeyd edək ki, Aynur Dadaşova ilə Niyam Salaminin dostluqlarının bitməsinə səbəb xanım müğənnin həmkarına düşmən kəsilən şəxslərlə restoran açması olub.



# "TikTok-a görə vergi ödəyirəm" - Pərvin Abıyeva

***Aktrisa Pərvin Abıyeva TikTok-dan əldə etdiyi gəlirdən danışıb.***

Sənətçi bu haqda "Fəlidən doğru xəbər" verilişindən danışıb. "TikTok qazancı elə-belə deyil. Oradan gələn gəlirə görə dövlətə vergi ödəyirəm. Heç bir filmdə çəkilmədiymə, boş vaxtım olduğuna görə TikTok-a girirəm" deyə, Pərvin bildirib.

Qeyd edək ki, Pərvinin TikTok-da 242 min izləyicisi var. Aktrisa bir müddət əvvəl açıqlamasında sözügedən sosial şəbəkədən bir ayda 36 min dollar qazandığını açıqlamışdı.

# "Oğlum istədi ki, bu şeirə mahnı yazım" - Xumar Qədimova

***Əməkdar artist Xumar Qədimova doğum günündə sevənlərinə "Sevgilim" adlı mahnısını və ona çəkdirdiyi klipini təqdim edib.***



Mahnının sözləri Əliağa Vahidə, musiqisi Qədimovanın özünə məxsusdur. X.Qədimova saytımıza açıqlamasında yeni mahnısının yaranma tarixçəsindən danışıb: "Biz ailəlikcə şeir aşiqiyik. Bu şeiri də oğlum Uğur məsləhət gördü, ona musiqi bəstələyib oxumağımı istədi. Mahnının yaranmasına görə Uğura minnətdaram.

Əslində, mahnı bir müddət əvvəl hazır idi. Mən bir nəğmənin üzərində çox çalışıram. O barədə çox həssasam. Saxladım ki, bu gün təqdim edim".

Əməkdar artist əlavə edib ki, doğum gününü qeyd etməyi sevir: "Bir neçə gün ailəlikcə və çox az adamla qeyd edirəm".

# Xatirə rusca yazdı, biabır etdilər

***Müğənni Xatirə İslam yenə paylaşımına görə tənqid olunub.***

"Unikal" olay-a istinadən xəbər verir ki, o, instaqram hesabında paytaxt Moskvada çəkdirdiyi fotoları paylaşıb.

İfaçının məkanın yerini "Krasnıy Ploşad Kremle" (əslində, doğru yazılışı belədir: "Krasnaə plohadğ Kremle", yəni Kremlin Qırmızı Meydanı) qeyd etməsi izləyicilərin müzakirələrinə səbəb olub. Belə ki, insanlar sənətçinin bu səhvini linç ediblər.

İzləyicilər paylaşıma "Xatirə xanım, "Krasnıy ploşad kremle" nədir? Tərcümədən istifadə edin, heç olmazsa, bizi biabır etməyin", "Yox bir, "Krasnaə loşad v kremle!" Yaza bilmirsənsə, yazma", "Geyimin heç zövqlü deyil", "Bu nə konbindir? Arıqlayandan sonra stilinizi itirmisiniz" və s. şərhlər yazıb.

Xatırladaq ki, bu yaxınlarda müğənni Xatirə İslam Moskvadakı hava limanından paylaşıdığı görüntülərdə "I lave Moscow" qeydini yazmağı "tənqid atəşi"nə tutulub.



# Qarabağ ermənilәri hansı ölkәlәrә köçәcәklәr?

***Azәrbaycan qanunları ilә yaşamaq istәmәyәn, eyni zamanda hadisәlәrin әleyhlәrinә inkişaf edәcәyini proqnozlaşdıran Qarabağ ermәnilәri hansı ölkәlәrә köçmәk istәyәcәklәr? Qarabağın imkanlı ermәnilәri ABŞ vә Avropa ölkәlәrindәn birinә köçmәyi arzulayırlar.***

Bu ölkәlәrdә qohumları olanlar artıq bu imkandan istifadә ediblәr. Ancaq belәlәrinin Qarabağda az olduğunu ehtimal etmәk mümkündür, imkanı olanlar Qәrb ölkәlәrinә köçüblәr. Qarabağın nisbәtәn orta tәbәqәsi Rusiyanın müxtәlif vilayәtlәrinә köçmәk istәyәcәk. Belә yerlәrdәn biri Krasnodardır. Rusiyanın bu bölgәsindә ermәnilәr kompakt yaşayırlar. Rusiyanın Qara dәnizә çıxışı olan kurort şәhәrlәrindә dә ermәnilәrin sayı çoxdur. Әhalisi qocalan vә artmayan Rusiyanın işçi qüvvәyә ehtiyacı var. Ona görә dә Qarabağ ermәnilәri Rusiyanın adı çәkilәn vilayәtlәrindә özlәrinә uyğun iş tapa bilәrlәr. Qarabağın әn kasıb tәbәqәsi çarәsiz durumda Ermәnistana köçәcәk, ancaq İrәvanda iş imkanları az olduğuna görә onlar paytaxtdan aralı qәsәbәlәrdә yerlәşmәk mәcburiyyәtindә qalacaqlar.

Azәrbaycan qanunları ilә yaşamaq istәmәyәn ermәnilәrin Qarabağdan köçünü necә sürәtlәndirmәk olar? Belә fikirlәr yayılır ki, evlәrini 60 vә 100 min dollara satmağa çalışan Qarabağ ermәnilәrinin hәmin evlәrini almaq lazımdır ki, yaxın gәlәcәkdә azәrbaycanlılar Xankәndinә qayıda bilsinlәr. Yaxşı ideyadır, ancaq bunun hәyata keçirilmәsi mexanizmi mürәkkәbdir. Belә bir qәrar verilәrsә evlәrin alınmasında baş rolu dövlәt oynamalıdır. Dövlәt evlәrin alınması mәqsәdilә hәm maliyyә ayırmalı, hәm dә Xankәndinә qayıtmaq istәyәn azәrbaycanlıların tәhlükәsizlik mәsәlәlәrini hәll etmәlidir. Sonuncu mәsәlә hәm dә ona görә vacibdir ki, Qarabağı tәrk etmәyәrәk Azәrbaycan qanunları ilә yaşamaq istәyәn ermәnilәr dә olacaq, azәrbaycanlılar Xankәndidә onlarla birgә yaşayacaqlar. O da mümkündür ki, köçmәk istәyәnlәr qalmaq istәyәnlәri üstәlәyәcәk. Bu halda Xankәndidә әhalinin nisbәti azәrbaycanlıların xeyrinә olacaq.

Rusiyaya köçmәk istәyәn Qarabağ ermәnilәrini bu işә tәşviq etmәk üçün xüsusi plan hazırlana bilәr. Mürәkkәb görünsә dә, Qarabağ ermәnilәrinin Rusiyaya köçәrәk iş tapmalarına yardımçı olmaq mümkündür. Bunun üçün Rusiyanın bölgәlәrindә işçi qüvvәyә ehtiyacı olan bölgәlәr araşdırılmalı vә ermәnilәrin ora köçmәlәrini sürәtlәndirmәk üçün bütün imkanlardan istifadә edilmәlidir. Bu bir beyin oyunudur. Mәqsәdimiz Azәrbaycan qanunlarını ilә yaşamaq istәmәyәn Qarabağ ermәnilәrinin әrazimizi tәrk etmәsini sürәtlәndirmәkdir. Bunun üçün bütün imkanlardan istifadә olunmalıdır ki, hәdәfә tez çataq. Bu İrәvanın, separatçıların vә onlara dәstәk verәn Qәrbdәki bәzi mәrkәzlәrin göstәrmәyә çalışdığı etnik tәmizlәmә deyil. Bu, Azәrbaycan qanunları ilә yaşamaq istәmәyәn ermәnilәrin tәhlkәsiz şәraitindә ölkә әrazisinin tәrkinә şәrait yaratmaqdır. Azәrbaycan qanunlarını vә pasportlarını qәbul edәn ermәnilәr Qarabağda hәyatlarına davam edәcәklәr.

***Elxan Şahinoğlu,***
***"Atlas" Araşdırmalar Mәrkәzi***

# Oqtay Әsәdovun şirkәti ilә bağlı böyük müәmma

## Eks-spiker biznesdә üzünü Rusiyadan Avropaya çevirir

***Yola salmaq üzrә olduğumuz hәftә deputat Oqtay Әsәdovun hәyat yoldaşı Zemfira Әsәdovaya mәxsus olan vә Rusiyada fәaliyyәt göstәrәn "Arizarum Qrup" şirkәtinin 2022-ci ildә әldә etdiyi gәlirlәr açıqlandı. Bu ölkәnin müvafiq rәsmi qurumlarının açıqladığı mәlumatlardan aydın olub ki, adıçәkilәn şirkәt "Arizarum Qrup" ötәn il 13 milyon 924 min rubl (291 min manat) gәlir әldә edib.***

Qeyd edәk ki, әvvәlki - 2021-ci illә müqayisdә "Arizarum Qrup"un gәliri 1% vә ya 121 min rubl azalıb (yeniavaz.com). Ümumiyyәtlә son 6 ildir "Arizarum Qrup"un gәlirlәrindә ciddi dәyişiklik olmur:

2017-ci ildә 14 568 000 rubl,
2018-ci ildә 13 984 000 rubl,
2019-cu ildә 13 919 000 rubl,
2020-ci ildә 13 815 000 rubl,
2021-ci ildә 14 045 000 rubl,
2022-ci ildә 13 924 000 rubl.

Mәlumat üçün bildirәk ki, "Arizarum Qrup" 14 yanvar 1998-ci ildәn fәaliyyәt göstәrir. Hüquqi ünvanı Moskva şәhәri, Bakı küçәsi, ev 29-da yerlәşәn şirkәtin yeganә tәsisçisi Әsәdova Zemfira Adil qızıdır. Şirkәtin direktoru isә Nazarova Larisa Aleksandrovnadır. Nizamnamә kapitalı 10 min rubl (209 manat) olan şirkәtin restoran sektorunda fәaliyyәt göstәrdiyi qeyd olunur.

Onu da qeyd edәk ki, Oqtay Әsәdovun hәyat yoldaşı eyni zamanda Nizami rayonunda yerlәşәn 175 saylı Körpәlәr evi-uşaq bağçasının müdiridir.

Deputatın ailә şirkәtinin son 5 ildә gәlirlәrindә ciddi artım әldә edә bilmәmәsi, son olaraq isә әvvәlki illә müqayisәdә gәlirini azaltması maraq doğurur. Düzdür, bu, Ukraynada hәrbi әmәliyyatlara başladıqdan sonra Rusiyada yaranmış vәziyyәtlә dә izah oluna bilәr. Lakin maraqlıdır ki, iki il öncә "Arizarum Qrup" 2017-2019-cu illәrlә müqayisәdә dә az qazanıb.



Bu yerdә bir neçә il әvvәl yayılmış mәlumatı xatırlatmaq yerinә düşәr. Qarşı tәrәfdәn tәkzib edilmәyәn hәmin mәlumatda iddia edilirdi ki, Moskvada, Bakı küçәsindә, 29 ünvanında yerlәşәn obyektdә xüsusi әmәliyyat keçirilib. Moskva polisinin Narkotik Nәzarәti İdarәsinin әmәkdaşları bu ünvanda yerlәşәn "Kapriz" adlı sauna-striptiz kluba qonşuların şikayәti әsasında gedib. Orada narkotik maddәlәrin satışı ilә bağlı әmәliyyat baş tutub.

Mәsәlә ondadır ki, rәsmi sәnәdlәrdә hәmin klubun da mәhz eks-spikerin ailә biznesinә daxil olduğu açıqlanmışdı. O da bildirilmişdi ki, "Kapriz"in real bazar dәyәri 10 milyon 629 min ABŞ dolları qiymәtlәndirilir.

O.Әsәdovun Rusiyadakı varidatına"Triumph Palace"da ( "Zәfәr Palas") yerlәşәn daşınmaz әmlaklar da daxildir. Bu plaza Moskvada әn hündür yaşayış binasıdır. "Daha dәqiqi, böyük bir kompleksdir. Hәm dә yalnız Rusiyanın deyil, Avropanın da әn yüksәk yaşayış binasıdır. Çardağı ilә birgә hündürlüyü 214 metr, qüllәsi ilә birlikdә isә 264 metrdir. Әsәdovlar bu binada 2 lüks mәnzilin sahibidir. Bunlardan birinin dәyәri tәxminәn 2-2,5 milyon dollardır. O birinin dәyәri isә 5-6 milyon dollara qәdәr çata bilәr" - bir neçә il öncәki mәlumatlarda iddia edilirdi.

O da vurğulanırdı ki, adıçәkilәn kompleksdә mәnzillәrin sayı mәrtәbә yüksәkliyinә görә dәyişir. Yәni, mәnzil nә qәdәr yuxarı mәrtәbәdә yerlәşirsә, dәyәri dә o qәdәr artır. Maraq üçün deputata aid mәnzillәrdәn birinin "Triumf Palas"ın 12-ci, digәrinin isә 37-ci mәrtәbәdә yerlәşdiyini xatırladaq. "Mәnzillәrdәn birinin pәncәrәlәri Kremlә açılır, pәncәrәlәr döşәmәdәn tavana qәdәrdir, çox otaqlıdır, 250 kvadrat metr sahәsi var. Mәnzildә fitnes vә kitabxana, spa-otaq, hәtta kinoteatr belә var. Böyük salonun bir divarı boyu dünyanın mәşhur şәrab markalarından olan "Petrus" nümunәlәrindәn ibarәt kolleksiya düzülüb. Mәnzildәki mebel tәchizatına tәxminәn 1,2 milyon dollar xәrclәnib. Mәnzil barokko üslubunda işlәnib" - yenә bir neçә il әvvәlki mәlumatlarda iddia edilirdi.

Lakin maraqlıdır ki, hәmin mәlumatlar da o zaman eks-spiker tәrәfindәn tәkzib olunmayıb.

Ümumiyyәtlә, Oqtay Әsәdovun Rusiyada taunhauslar, kotejlәr, mәnzillәr, dükanlar, avtoyuma mәrkәzlәri, striptiz klublar vә saunalar, restoranlar sahibi olduğuna dair iddiaların mütәmadi gündәmә gәldiyini dә xatırlatmaq yerinә düşәr.

Bununla belә, onun şimal qonşumuzdakı biznesindә illәrdәn bәridir hәr hansı inkişafın müşahidә edilmәdiyi vurğulanır. Elә "Arizarum Qrup"un son 5 ildәki göstәricilәri dә bunun tәsdiqi olaraq qiymәtlәndirilir. İddialar bu yöndәdir ki, Әsәdov artıq Rusiyada biznesi ilә ciddi maraqlanmır. "Adıçәkilәn ölkәyә qarşı sanksiyalar vә Ukrayna ilә savaşın necә bitәcәyi yönündә qeyri-müәyyәnlik onu daha çox Avropadakı biznesini güclәndirmәyә hәvәslәndirir. Söhbәt xüsusilә İngiltәrәdәn gedir" deyә bәzi qaynaqlar vurğulayırlar.

***Toğrul Әliyev***

# Tərəflər yenidən masaya qayıdır:
## Yol sərhəd-buraxılış məntəqəsindən keçəcək

***Xəbər verdiyimiz kimi, Dövlət Sərhəd Xidmətinin (DSX) bölmələri tərəfindən ölkəmizin suveren ərazilərində, Ermənistan ilə sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsi qurulub.***

Qeyd edək ki, 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata zidd olaraq Ermənistandan Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri üçün canlı qüvvə, silah-sursat, mina, eləcə də digər hərbi təyinatlı vasitələrin daşınmasının qarşısının alınması məqsədilə və Ermənistan tərəfindən aprelin 22-də birtərəfli qaydada Azərbaycan ilə sərhəddə Laçın-Xankəndi yolunun girişində nəzarət buraxılış məntəqəsinin qurulmasına adekvat olaraq aprelin 23-ü saat 12:00-da Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin bölmələri tərəfindən ölkəmizin suveren ərazilərində, Ermənistan ilə sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsi qurulub.

Rəsmi Bakı bəyan edib ki, Laçın yolunun başlanğıcında sərhəd-nəzarət mexanizminin təsis edilməsi yoldan hərəkət üzrə şəffaflığı, qanunun aliliyini və beləliklə, hərəkətin təhlükəsizliyini təmin edəcək. Sərhəd təhlükəsizliyinin təmin edilməsi, habelə hərəkətin təhlükəsizliyinin həyata keçirilməsi Azərbaycan Hökumətinin preroqativi və milli təhlükəsizlik, dövlət suverenliyi, qanunun aliliyi üçün zəruri şərtdir.

Ermənistanın baş naziri Nikol Paşinyanın 27 aprel tarixində hökumətin iclasında çıxışı zamanı ölkəmizin Azərbaycan-Ermənistan sərhədində nəzarət-buraxılış məntəqəsi təsis etməsi ilə bağlı səsləndirdiyi cəfəng iddialar rəsmi Bakı tərəfindən narazılıqla qarşılanıb. Azərbaycan Xarici İşlər Nazirliyindən (XİN) bildirilib ki, onun cəfəng iddiaları qətiyyətlə rədd edilir.

"Azərbaycanın daxili işi olan öz suveren ərazisində sərhəd nəzarət-buraxılış məntəqəsi təsis etməsi məsələsinə Ermənistan tərəfinin hər hansı bir müdaxiləsi Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı iddiadır və Ermənistan tərəfindən Praqa və Soçidə öz üzərlərinə götürdükləri öhdəliklərə, eləcə də beynəlxalq hüququn bütün norma və prinsiplərinə ziddir. Ermənistan tərəfinin bu kimi bəyanatları bölgədə sülh və əmin-amanlığa töhfə verməməklə yanaşı, qəsdən gərginliyin artması məqsədi daşıyır.

44 günlük Vətən müharibəsindən sonra Üçtərəfli bəyanatın müddəalarına zidd olaraq, Ermənistan tərəfinin vəziyyətin gərginləşməsinə xidmət edən addımları kimi Azərbaycana qarşı hərbi təxribatlara son qoyulmamasını, yoldan qeyri-qanuni fəaliyyətlər, silah-sursat və minaların daşınması üçün istifadə edilməsini, erməni silahlı qüvvələrinin Azərbaycan ərazisindən tam olaraq çıxarılmamasını Ermənistan baş nazirinə xatırlatmaq kifayətdir. Bu xüsusda, qeyd edilən təxribatların qarşısını alacaq bu məntəqənin təsis edilməsinin sülh prosesinə mənfi təsir etdiyi barədə fikirlər tamamilə qəbuledilməzdir. Əksinə, bu addımın atılması sözügedən qeyri-qanuni fəaliyyətlərin effektiv qarşısının alınmasına xidmət edəcək.

Yola sərhəddən giriş-çıxış rejimini tənzimləyəcək bu məntəqənin təsis edilməsinin yolun bağlanması kimi qiymətləndirilməsi tamamilə yanlışdır. Bununla yanaşı, Baş nazirin iddialarının əksinə, Üçtərəfli bəyanata əsasən Azərbaycanın Laçın yolu üzərində səlahiyyətləri və suveren hüquqları mövcuddur. Azərbaycan hər zaman olduğu kimi, öz öhdəlikləri çərçivəsində Laçın-Xankəndi yolunda hərəkət edən vətəndaşların, nəqliyyat vasitələri və yüklərin təhlükəsizliyinə zəmanət verir və bu istiqamətdə müvafiq tədbirləri davam etdirəcək.

Sərhəd nəzarət-buraxılış məntəqəsinin təsis edilməsinin "etnik təmizləmə" məqsədi güddüyü barədə Baş nazirin cəfəng iddiası qəbuledilməzdir. Məntəqədən Azərbaycan Respublikasının Qarabağ bölgəsinin yerli erməni sakinlərinin hər iki istiqamətdə şəffaf, təhlükəsiz və nizamlı keçidi üçün müvafiq şərait mövcuddur. Baş nazirin erməni sakinlərlə dialoq, "təhlükəsizlik zəmanəti" "mübahisələrin həlli mexanizmi", "beynəlxalq faktaraşdırıcı missiya göndərilməsi" kimi məsələlər üzrə dəfələrlə təkrarlanmış arzu və iddiaları ilə əlaqədar qeyd edək ki, Azərbaycan tərəfi erməni sakinlərlə dialoqu ölkə qanunvericiliyi çərçivəsində həyata keçirəcək və üçüncü tərəflərin bu məsələyə müdaxiləsi qəbuledilməzdir. Ermənistan tərəfini əsassız bəyanatlar verməkəvəzinə, ötən ilin dekabr ayından bəri imtina etdikləri sülh sazişi üzrə danışıqlara məsuliyyətlə və konstruktiv yanaşmağa, kommunikasiyaların açılması, qüvvələrini Azərbaycan ərazilərindən tam çıxarılması daxil olmaqla, Üçtərəfli bəyanatdan irəli gələn öhdəliklərə riayət etməyi, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı addımlardan çəkinməyi tələb edirik", - deyə nazirliyin yaydığı məlumatda qeyd olunub.



Bu barədə "Unikal"a açıqlama verən politoloq Qabil Hüseynli deyib ki, Azərbaycanın Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsi qurması son dərəcə əhəmiyyətli bir addımdır. Onun sözlərinə görə, hər bir dövlətin suverenliyinin başlıca göstəricisi onun bütün sərhədlərini qoruya bilməsidir: "Biz Laçın yolunda sərhəd-buraxılış məntəqəsini qurmaqla sərhədlərimiz üzərində suverenliyimizin bərpa edilməsi istiqamətində həlledici addım atdıq. Bundan sonra bizim ərazilərimizə daxil olan, sərhədlərimizi keçən hər hansı bir adam və yaxud yük haqqında ətraflı məlumatımız olacaq, onları yoxlayacağıq. Azərbaycana və Azərbaycandan nələrin daşındığına nəzarət edə biləcəyik. Bir sözlə, Azərbaycan sərhəd-buraxılış məntəqəsini qurmaqla bütün ərazilərində suverenliyini təmin etdi", - deyə o qeyd edib.

Q. Hüseynli Rusiya sülhməramlılarının Qarabağdakı komandanının dəyişdirilməsindən də danışıb: "Rusiya son proseslərdən çox narahat olub. Onlar yeni sərhəd-buraxılış məntəqəsinin tamamilə rusların tabeliyində olmasını istəyirlər. Sülhməramlıların yeni komandanı məhz bu iddialarla Qarabağa gəlib. Buna baxmayaraq, Azərbaycan öz mövqeyində qətiyyətlidir. Bu məsələlərdə Rusiyaya heç bir güzəşt edilməyəcək. Ruslar öz dediklərini həyata keçirsələr, bununla Azərbaycanın suveren hüquqlarına zərbə vurmuş olar. Rusiyanın istəkləri reallaşmayacaq. Azərbaycan öz suveren hüquqlarını qoruyub saxlayacaq".

Azərbaycanın sabiq xarici işlər naziri Elmar Məmmədyarov isə deyib ki, Laçın dəhlizində nəzarət-buraxılış məntəqəsinin qurulması böyük hadisədir. Onun qənaətincə, Azərbaycan bununla möhtəşəm addım atmış oldu: "Məncə, Laçında Dövlət Sərhəd Xidmətinin buraxılış məntəqəsinin açılması böyük addımdır, mən deyərdim ki, tarixi hadisədir. Azərbaycan tərəfi Həkəri çayı üzərində qurulan nəzarət-buraxılış məntəqəsi vasitəsilə gediş-gəlişə faktiki olaraq nəzarət edəcək. Bu proses Azərbaycan-Ermənistan şərti sərhədində olan digər nöqtələrdə də sürətlə davam edəcək. Mən əminəm ki, Azərbaycan öz torpaqları üzərində suverenliyini tamamilə bərpa edəcək. Ümumiyyətlə, nəzarət-buraxılış məntəqəsinin yaradılması ilə Ermənistan tərəfindən Qarabağa qanunsuz yük daşımalarının qarşısı alınacaq.

Məlumat üçün onu da xatırladaq ki, Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova bildirib ki, Ermənistan, Rusiya və Azərbaycan XİN rəhbərlərinin üçtərəfli görüşünə dair razılıq əldə olunub. Görüşün hansı tarixdə keçiriləcəyi isə hələ ki, dəqiqləşməyib. Diqqət çəkən məqam isə ondan ibarətdir ki, bu, sərhəddə baş verən son gərginlikdən sonra ilk görüş olacaq.

Onu da qeyd edək ki, Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Fransanın Avropa və xarici işlər naziri Ketrin Kolonna ilə keçirdiyi mətbuat konfransında tərəflərin danışıqlar masasına qayıdacağı anonsunu verib. O bildirib ki, Ermənistan tərəfinin qeyri-konstruktiv mövqeyinə görə ötən ilin noyabrından etibarən tərəflər arasında görüşlər baş tutmayıb. "Tərəfdaşların çoxsaylı təkidləri və çıxışlarından sonra yaxın zamanda Ermənistanın danışıqlar masasına qayıtması gözlənilir", - deyə nazir bildirib.

Elmar Məmmədyarov görüşün mümkün nəticələrindən də danışıb: "Ermənistan bu görüşün keçirilməsini qəbul edibsə, deməli, onlar artıq başa düşüblər ki, vəziyyət nə yerdədir. Ermənilər danışıqlardan başqa yol olmadığını qəbul ediblər. Xatırladım ki, dekabr ayında Ermənistan tərəfi görüşün keçirilməsi təklifini geri çevirmişdi. İndi isə Laçın-Xankəndi yolunda sərhəd-buraxılış məntəqəsi quruldu və ermənilər görüş təklifini qəbul etdilər. Bu baxımdan təhlil edəndə aydın olur ki, onlar görüşdən qaça bilməyəcəklərini anlayıblar. İndidən görüşdə hansı nəticələrin əldə olunacağını demək əlbəttə ki, çətindir. Buna baxmayaraq, hər görüş bir addım irəli getmək deməkdir. Doğrusu, mən inanmıram ki, hər hansı irəliləyiş olsun, amma ümumiyyətlə görüşün keçirilməsi müsbət haldır. Onu da qeyd edim ki, Laçın-Xankəndi yolunda sərhəd-buraxılış məntəqəsinin qurulması ilə bu proses yekunlaşmayacaq. Növbəti mərhələdə orada gömrük postu da qurulacaq. Necə ki, digər qonşu ölkələrlə sərhəd ərazilərimizdə postlar və nəzarət məntəqələri var, eyni şəkildə həmin postlar Ermənistanla sərhəddə də qurulacaq", - deyə o bildirib.

***Murad İbrahimli***

# Azərbaycan, Türkiyə və Türkmənistan arasındakı sənəd təsdiqləndi



***Prezident İlham Əliyev "Azərbaycan Respublikası Hökuməti, Türkiyə Respublikası Hökuməti və Türkmənistan Hökuməti arasında gömrük əməkdaşlığı üzrə Birgə Məşvərət Komissiyasının yaradılmasına dair Anlaşma Memorandumu"nu təsdiq edib.***

"Unikal"ın məlumatına görə, dövlət başçısı bununla bağlı yeni fərman imzalayıb.

Fərmana əsasən, Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Dövlət Gömrük Komitəsi onun müddəalarının həyata keçirilməsini təmin etməlidir.

Xarici İşlər Nazirliyi isə Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Türkiyə Hökumətinə bildiriş göndərməlidir.

# Prezidentdən DİA-nın rektoru ilə bağlı sərəncam

***Azərbaycan Respublikasında elm və təhsilin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Urxan Kazım oğlu Ələkbərov "Şərəf" ordeni ilə təltif edilib.***

"Unikal" xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Sərəncam imzalayıb.

Qeyd edək ki, Urxan Ələkbərov Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektorudur.

# Ərdoğanla Putin telefonla danışıb



***Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla Rusiya Prezidenti Vladimir Putin arasında telefon danışığı olub.***

Bu barədə Türkiyə Prezidenti Administrasiyası məlumat yayıb.

Tərəflər Akkuyu Atom Elektrik Stansiyasının açılışı, ikitərəfli münasibətlər, həmçinin Suriya və Rusiya-Ukrayna müharibəsinə dair məsələləri müzakirə edib.

# "Uşaq evlərində hər iki valideyni olan uşaqlar da var" - Komitə sədri

***"Son dövrdə uşaq evlərində nəinki valideynsiz, hətta hər iki valideyni olan uşaqlar da var".***



"Unikal" xəbər verir ki, bunu Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin bu gün keçirilən iclasında komitə sədri Hicran Hüseynova deyib.

Komitə sədri bildirib ki, qardaş Türkiyədə uşaq evindən çıxanların 90 faizi dövlət işində çalışmağa gedir: "Həmin uşaqlar mütləq işlə təmin olunmalıdır. Bu işi dövlət öz üzərinə götürür. Biz də himayədar ailə modeli ilə çalışırıq ki, ailə özü bu məsuliyyəti daşısın və övladını böyütsün".

***Anar Kəlbiyev***

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qazet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# İlham Əliyev: "Ermənistan Naxçıvanla dəhlizin yaradılmasına imkan vermir"



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 27-də Fransa Respublikasının Avropa və xarici işlər naziri Ketrin Kolonnanı qəbul edib.***

"Unikal" xəbər verir ki, Prezident İlham Əliyev Azərbaycan-Fransa əlaqələrinin perspektivləri ilə bağlı geniş fikir mübadiləsi aparılmasının zəruriliyini bildirərək Ketrin Kolonnanın ölkəmizə səfəri zamanı bir çox məsələlər ətrafında hərtərəfli müzakirələrin keçiriləcəyinə əminliyini ifadə etdi, bunun gələcək əməkdaşlıq üçün faydalı ola biləcəyini vurğuladı. Dövlətimizin başçısı əlaqələrin perspektivləri ilə bağlı fikir mübadiləsinin növbəti mərhələ üçün yol xəritəsinin tərtib edilməsi baxımından önəmli olduğunu bildirdi.

Azərbaycan Prezidenti ikitərəfli münasibətlərin gündəliyinin həmişə çox geniş olduğunu dedi, siyasi, iqtisadi, enerji, nəqliyyat sahələrində və digər sahələrdə əməkdaşlığın yaxşı tarixə malik olduğunu qeyd etdi.

Prezident İlham Əliyev Fransanın Avropa və xarici işlər nazirinin regiona səfər etdiyini vurğulayaraq bu çərçivədə eyni zamanda regional əməkdaşlıq və regional təhlükəsizlik məsələlərinin də müzakirə olunacağına ümidvarlığını bildirdi.

Dövlətimizin başçısı 44 günlük Vətən müharibəsi başa çatandan dərhal sonra məhz ölkəmizin Ermənistanla qarşılıqlı şəkildə bir-birinin ərazi bütövlüyünü və suverenliyini tanımaqla sülh müqaviləsi imzalamaq təklifini irəli sürdüyünü və bunun üçün rəsmi İrəvana 5 prinsip təqdim etdiyini vurğuladı.

Prezident İlham Əliyev bildirdi ki, 2020-ci il noyabrın 10-da üçtərəfli Bəyanatın imzalanmasından və 44 günlük Vətən müharibəsinin başa çatmasından sonra Ermənistan öz üzərinə düşən öhdəliklərini yerinə yetirmir. Bu xüsusda dövlətimizin başçısı vurğuladı ki, Ermənistan Naxçıvanla dəhlizin yaradılmasına imkan vermir, öz qoşunlarını Rusiya sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərindən çıxarmır və Laçın dəhlizindən sui-istifadə edərək Qarabağa silah-sursat və digər hərbi təyinatlı məhsulların daşınmasını həyata keçirirdi.

Prezident İlham Əliyev Azərbaycan-Ermənistan sərhədində, Laçın-Xankəndi yolunun başlanğıcında sərhəd-buraxılış məntəqəsinin qurulmasını ölkəmizin suveren hüququ və ərazi bütövlüyümüzün təmin olunmasının ifadəsi olduğunu qeyd etdi.

Ketrin Kolonna Fransa Prezidenti Emmanuel Makronun salamlarını dövlətimizin başçısına çatdırdı. Vurğuladı ki, Emmanuel Makron Azərbaycan Prezidenti ilə açıq və mütəmadi əlaqələrə çox önəm verir.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Emmanuel Makrona çatdırmağı xahiş etdi.

Ketrin Kolonna bildirdi ki, Fransa Azərbaycanda və ümumiyyətlə Cənubi Qafqaz regionunda sülhün, iqtisadi və sosial inkişafın mövcud olmasını istəyir və ölkəsinin məqsədi həmişə bundan ibarət olub. Qonaq Fransanın ikitərəfli əlaqələrə, eyni zamanda, Avropa İttifaqı çərçivəsində əlaqələrə böyük önəm verdiyini bildirərək bu istiqamətdə geniş potensialın mövcud olduğunu dedi.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Sahibə Qafarova Türkiyəyə işgüzar səfər edib

***Milli Məclisin sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti aprelin 27-də Türk Dövlətləri Parlament Assambleyasının XII Plenar İclasında iştirak etmək üçün Türkiyə Respublikasının paytaxtı Ankara şəhərinə işgüzar səfərə gəlib.***

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, nümayəndə heyətinin tərkibinə Milli Məclisin komitə sədri, Türkiyə ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov, deputatlar Nizami Cəfərov, Cavanşir Feyziyev, Məlahət İbrahimqızı, Hikmət Məmmədov, Sədaqət Vəliyeva, Anar Məmmədov və digər rəsmi şəxslər daxildirlər.

Ankara şəhərinin Əsənboğa Beynəlxalq Hava Limanında nümayəndə heyətini Türkiyə Böyük Millət Məclisinin Hüquq komissiyasının sədri Erol Kaya, Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov və digər rəsmi şəxslər qarşılayıblar.

Səfər çərçivəsində Milli Məclisin sədri Sahibə Qafarovanın Türk Dövlətləri Parlament Assambleyasının iclasında çıxışı gözlənilir.



# Məhkəmədən Anar Əsədli ilə bağlı qərar

***Azərbaycan Yüksəliş Partiyasının dələduzluqda ittiham olunan sədri Anar Əsədli barəsindəki qərardan verilmiş şikayətə baxılıb.***



"Unikal" apa-ya istinadən xəbər verir ki, bu gün Bakı Apellyasiya Məhkəməsində hakim Ziya Şirinovun sədrliyi ilə keçirilən iclasda şikayət əsassız sayılaraq rədd olunub.

Nərimanov rayon məhkəməsinin qərarı qüvvədə saxlanılıb.

Qeyd edək ki, partiya sədri 4 nəfərə qarşı dələduzluqda təqsirləndirilir. Ona qarşı Cinayət Məcəlləsinin 178-ci (dələduzluq) maddəsi ilə ittiham irəli sürülüb, barəsində 2 ay 23 günlük həbs qətimkan tədbiri seçilib.

# Nazirlər Laçın yolu ətrafındakı vəziyyəti müzakirə etdilər




***Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla Bakıda səfərdə olan Avropa və xarici işlər naziri Ketrin Kolonnan arasında görüş keçirilib.***

“Unikal” xəbər verir ki, C.Bayramov həmkarını Xarici İşlər Nazirliyinin binası önündə qarşılayıb. Tərəflər arasında təkbətək görüş keçirilib. Sonra Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Fransanın Avropa və xarici işlər naziri Ketrin Kolonna ilə birgə mətbuat konfransı keçiriblər. Nazirlər konfransda bir sıra mühüm məqamlarla bağlı açıqlamalar veriblər.

Nazir Ceyhun Bayramov deyib ki, Fransa xarici işlər naziri ilə görüşdə Laçın yolu ətrafındakı vəziyyət müzakirə olundu: “Mən xanım nazirə üçtərəfli bəyanatdan sonra Laçın yolunda olan vəziyyət, Ermənistan tərəfindən qanunsuz silahların daşınması, üçüncü ölkə vətəndaşların, o cümlədən terrorçuların qanunsuz olaraq əraziyə gəlməsi, Azərbaycan ərazilərinin təbii sərvətlərinin talan edilməsi və Laçın yolu ilə daşınması barədə məlumat verdim”.

Nazir bildirib ki, xüsusilə həmkarına Ermənistan tərəfindən Laçın yolu ilə minaların daşınması və Azərbaycan ərazilərində basdırılması barədə məlumat verib. ”Üçtərəfli bəyanat imzalanandan sonra 294 Azərbaycan vətəndaşı mina qurbanı olub. Dəfələrlə xəbərdarlıqlara baxmayaraq, Ermənistan tərəfi tələblərə əməl etməyib. Azərbaycan Laçın yolunda sərhəd-buraxılış məntəqəsinin qurulmasını təklif etmişdi. Lakin Ermənistan buna da etiraz etmişdi. Azərbaycan vəziyyəti şəffaflaşdırmaq üçün Laçın yolunda nəzarət-buraxılış məntəqəsinin qurulması qərarını verdi. Laçın yolu bundan sonra da açıqdır və açıq olacaq”, - nazir əlavə edib.

”Bütün xəbərdarlıqlara baxmayaraq, Ermənistan imzaladığı sənədlərə əməl etməyib. Prezident İlham Əliyev tərəfindən ən yüksək səviyyədə Laçın yolu üzərindən şəffaf rejimin təmin edilməsi, o cümlədən nəzarət-buraxılış məntəqəsinin Ermənistanla paralel olaraq həyata keçirilməsi təklif olunmuşdu” - deyən nazir bildirib ki, bu təkliflər Ermənistan tərəfindən qəbul olunmayıb: ”Belə olan təqdirdə, Laçın yolu üzərində şəffaf rejimin təmin olunması üçün aprelin 23-də Azərbaycan nəzarət-buraxılış məntəqəsi qurdu. 2020-ci il üçtərəfli Bəyanata əsasən, Laçın yolu üç məqsədlə istifadə oluna bilər. Yoldan vətəndaşların, yüklərin və nəqliyyat vasitələrinin keçidi nəzərdə tutulub. Laçın yolu bu məqsədlər üçün açıqdır və bundan sonra da açıq olacaq. ”Mən həmkarıma Azərbaycanın postmünaqişə dövrünə baxışlarını çatdırdım. Eyni zamanda, postmünaqişə dövrünün mərhələləri və aspektləri barədə məlumat verdim”.

O qeyd edib ki, Ermənistan tərəfinin qeyri-konstruktiv mövqeyinə görə ötən ilin noyabrından etibarən tərəflər arasında görüşlər baş tutmayıb. ”Tərəfdaşların çoxsaylı təkidləri və çıxışlarından sonra yaxın zamanda Ermənistanın danışıqlar masasına qayıtması gözlənilir”, - deyə nazir bildirib.

”Bütün xəbərdarlıqlara baxmayaraq, Ermənistan imzaladığı sənədlərə əməl etməyib. Prezident İlham Əliyev tərəfindən ən yüksək səviyyədə Laçın yolu üzərindən şəffaf rejimin təmin edilməsi, o cümlədən nəzarət-buraxılış məntəqəsinin Ermənistanla paralel olaraq həyata keçirilməsi təklif olunmuşdu” - deyən nazir bildirib ki, bu təkliflər Ermənistan tərəfindən qəbul olunmayıb: ”Belə olan təqdirdə, Laçın yolu üzərində şəffaf rejimin təmin olunması üçün aprelin 23-də Azərbaycan nəzarət-buraxılış məntəqəsi qurdu. 2020-ci il üçtərəfli Bəyanata əsasən, Laçın yolu üç məqsədlə istifadə oluna bilər. Yoldan vətəndaşların, yüklərin və nəqliyyat vasitələrinin keçidi nəzərdə tutulub. Laçın yolu bu məqsədlər üçün açıqdır və bundan sonra da açıq olacaq”.

C.Bayramov daha sonra qeyd edib ki, Azərbaycan heç vaxt Fransa ilə münasibətlərin gərginləşməsinin səbəbkarı olmayıb və hər zaman əlaqələrin müsbət müstəvidə inkişaf tərəfdarı olub: “Ölkəmiz bunun üçün səylər göstərib. Münasibətlərdə fikir ayrılığı olan zaman Azərbaycan tərəfi təmaslardan heç zaman çəkinməyib. Bu müddət ərzində də müxtəlif səviyyələrdə təmaslar intensiv olaraq davam edib”.

Fransanın Avropa və xarici işlər naziri Ketrin Kolonna isə deyib ki, Fransa istəyir ki, Azərbaycan və Ermənistan arasında sülh olsun. Toqquşmaların qarşısının alınması vacibdir. Azərbaycan sülh müqaviləsi üçün cəhdlər edir və bunu alqışlayırıq. O bildirib ki, sülhə gedən yol çətin yoldur, səbir, təmkin tələb edir: ”Bununla bağlı gələcək panlar da qurulmalıdır. Azərbaycanla Ermənistan bir-birinin ərazi bütövlüyünü və suverenliyini tanımalıdır. Növbəti illər ərzində sülh sazişinə nail olmaq lazımdır. Biz istərdik ki, danışıqlar məhsuldar olsun”.

# "Himayədar ailələrin sayının çox olmasını gözləmək lazım deyil" - Deputat

***”Azərbaycanda himayədar ailə mexanizmi qanunvericilikdə nəzərdə tutulsa da, bu vaxta qədər tətbiq olunmayıb. Bu model Azərbaycan üçün yad deyil”.***



”Unikal” xəbər verir ki, bunu Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin iclasında deputat Tamam Cəfərova deyib.

Onun sözlərinə görə, ölkəmizdə elə ailələr var ki, öz qohumlarının, yaxınlarının uşaqlarını götürüb onlara himayədarlıq edirlər: ”Yəni, bizim mədəniyyətimizdə bu cür himayədarlıq olub. Artıq bunun hüquqi bazası yaradılır, qanunla tənzimlənəcək. Bu da himayədar ailələrin çoxalması ilə bağlı motivasiya rolunu oynayacaq. Birdən-birə himayədar ailələrin sayının da çox olmasını gözləmək lazım deyil. Bunun üçün təbliğat aparılmalıdır. Qardaş Türkiyədə 8 mindən çox himayədar ailə var”, - deyə deputat bildirib.

***Anar Kəlbiyev***



# Zakir Həsənov müavinlərini Türkiyəyə göndərdi

***Azərbaycanın müdafiə nazirinin müavini-Hərbi Hava Qüvvələri Komandanı general-leytenant Ramiz Tahirov və müdafiə nazirinin müavini Aqil Qurbanov Türkiyəyə gediblər.***

Bu barədə “Unikal”a Azərbaycanın Türkiyədəki Səfirliyindən məlumat verilib. Bildirilib ki, R.Tahirov, A.Qurbanov, Azərbaycan Silahlı Qüvvələrinin Türkiyədəki Hərbi attaşesi polkovnik Müşfiq Məmmədov və Azərbaycanın Türkiyədəki Səfirliyinin əməkdaşları “TEKNOFEST-2023” çərçivəsində İstanbul şəhərində səfərdə olduqları zaman “Özdemir Bayraktar Milli Texnologiya Mərkəzi”ni ziyarət edib.

Ziyarət zamanı “Baykar” şirkətinin baş direktoru Haluk Bayraktar tərəfindən qəbul edilən nümayəndə heyətimiz Türkiyənin müdafiə sənayesinin son illərdə çox böyük nailiyyətlər əldə etdiyini bildirərək bu xüsusda “Baykar” şirkətinin fəaliyyətinin aparıcı rol oynadığını vurğulanıb.

Görüş zamanı “Baykar” şirkətinin istehsal etdiyi məhsulların Vətən müharibəsi dövründə erməni işğalçılarının hərbi texnikasının məhv edilməsində oynadığı rolu bir daha qeyd olunub.

Söhbət zamanı Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün digər sahələrdə olduğu kimi hərbi və müdafiə sənayesi sahələrində də uğurla inkişaf etdiyi vurğulanaraq, əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

# "Anam, gözlə məni, gələcəm" - Əsir düşən hərbçimiz

***Ermənistanda əsir saxlanılan Azərbaycan Ordusunun əsgəri Hüseyn Axundovun məktubu ailəsinə çatdırılıb.***

”Unikal” xəbər verir ki, bu barədə Modern.az-a əsir hərbçinin anası Şəlalə Axundova məlumat verib.

Onun sözlərinə görə, məktub BQXK nümayəndələri tərəfindən təqdim olunub. ”Salam anam. Mənəm Hüsü. Necəsən, anam? Vəziyyət necədir? İnşallah, gələcəm, anam. Gözlə. Özünə yaxşı bax. Nə olar məktub yaz mənə”, - məktubda deyilir.

Qeyd edək ki, bu yaxınlarda BQXK nümayəndələri Ermənistanda əsir götürülən Azərbaycan Ordusunun əsgərlərinə baş çəkiblər. İrəvanda keçirilən görüş zamanı hərbçilərə ailələri ilə Qızıl Xaç Məktubu vasitəsilə əlaqə yaratmaq imkanı verilib.

”Mandatına uyğun olaraq, BQXK başçəkmələr zamanı saxlanılan şəxslərlə rəftarı və saxlanma şəraitini qiymətləndirir, onların ailələri ilə əlaqələrini bərpa etmək və ya davam etdirmək üçün şərait yaradır. BQXK-nin prosedurlarına uyğun olaraq, başçəkmələrlə bağlı müşahidələr və tövsiyələr yalnız saxlayan tərəflə paylaşılır”, - BQXK-nin yaydığı məlumatda deyilir.

Xatırladaq ki, Naxçıvanda xidmətdə olan 2004-cü il təvəllüdlü Bəbirov Aqşin Qabil oğlu və 2003-cü il təvəllüdlü Axundov Hüseyn Əhliman oğlu itkin düşüblər. Bu yaxınlarda onların yolu azaraq Ermənistan ərazisinə keçdiyi məlum olub. Hər iki əsgərimiz Ermənistanda əsir götürülüb və onlara qarşı saxta ittihamlarla cinayət işi açılıb.



## “Mətbuatın sürətli inkişafı Heydər Əliyevin adı ilə bağlıdır” - Əhməd İsmayılov

***”Bu gün biz Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə media nümayəndələrinin iştirakı ilə ağacəkmə aksiyası keçiririk. Gördüyünüz kimi, Azərbaycanın aparıcı media subyektlərinin təmsilçiləri böyük həvəslə aksiyada iştirak edirlər”.***

“Unikal” xəbər verir ki, bunu Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov deyib.

O bildirib ki, Azərbaycanda müstəqil mətbuatın formalaşması və sürətli inkişafının təmin edilməsi Ümummilli Lider Heydər Əliyevin adı ilə birbaşa bağlıdır.

”Ulu Öndər həmişə jurnalist peşəsinə dərin hörmət bəsləmiş, mətbuat işçiləri ilə yaxın təmasda olub. Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında hazırlanaraq ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Konstitusiyamızda söz, fikir və məlumat azadlığı ilə bağlı konkret müddəalar əksini tapıb. Məhz Ulu Öndərin təşəbbüsü, siyasi iradəsi və böyük səyləri nəticəsində Azərbaycanda 1998-ci ildə mətbuat üzərindən senzura ləğv edilib.

2002-ci ilin martında Azərbaycan jurnalistləri arasında keçirilmiş sorğu nəticəsində Heydər Əliyevin “Jurnalistlərin dostu” seçilməsi Ümummilli Liderin medianın inkişafına diqqət və qayğısının məntiqi nəticəsi olub.

Ulu Öndərin siyasətini və ənənələrini müasir dövrün tələblərinə uyğun olaraq uğurla davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyev medianın inkişafına əlverişli şərait yaradılmasını dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirib.

Ümummilli Liderimiz Heydər Əliyevin nurlu xatirəsi Azərbaycan mətbuatının tarixində, Azərbaycan jurnalistlərinin qəlbində əbədi yaşayacaq, Azərbaycan jurnalistləri Ulu Öndərimizi həmişə qədirbilənliklə anacaqlar”, deyə Əhməd İsmayılov vurğulayıb.

# “Laçın yolunda nəzarət-keçid məntəqəsinin yaradılması tarixi hadisədir”

## Vüqar Bayramov: “Azərbaycanın suveren sərhədlərində nəzarət-buraxılış məntəqələrinin qurulması həm də ölkəmizin uzun müddət işğal altında qalan, hazırda Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi ərazilərdəki mövcud ehtiyatların talan edilməsinin qarşısını alacaq”

***Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, deputat Vüqar Bayramov ”Unikal”a müsahibə verib. O, 2023-cü ilin dövlət büdcəsində artırılması nəzərdə tutulan vəsaitin hansı sahələrə ayrılacağından, Laçın-Xankəndi yolunun başlanğıcında qurulan nəzarət-buraxılış məntəqəsinin iqtisadi əhəmiyyətindən və quru sərhədlərinin nə zaman açıla biləcəyindən danışıb.***

***-Vüqar müəllim, dövlət büdcəsinin 3 milyard manat və ya daha çox artırılacağı gözlənilir. Bu vəsaitin əsas hissəsi Qarabağ və Zəngəzurun qurulmasına və hərbi xərclərə yönəldiləcək. Həmin vəsaitdən digər hansı sahələrə ayırmalar ola bilər?***

-2023-cü ilin dövlət büdcəsinə əlavə və dəyişikliklərin ediləcəyi gözlənilir. Artıq hökumətdə bununla bağlı layihənin hazırlanması üzərində işlər gedir. Nazirlər Kabinetinin yaydığı məlumatda da qeyd olunub ki, birinci rübdə yığımların proqnozdan çox olması, eyni zamanda, makroiqtisadi hədəflər dövlət büdcəsində dürüstləşmənin aparılması, əlavə və dəyişikliklərin edilməsinə zəmin yaradıb. Bu baxımdan, 2023-cü ilin dövlət büdcəsinin gəlir və xərcləri artırılacaq. Həmçinin, dövlət büdcəsində nəzərdə tutulan neftin qiyməti dünya bazar qiyməti ilə müqayisədə aşağıdır. Bu o deməkdir ki, yalnız qeyri-neft sektorundan deyil, eyni zamanda enerji sektorundan da daxilolmalar proqnozlaşdırılandan daha çoxdur. Belə ki, büdcədə gəlirlərin artması xərclərə də dəyişikliklərin edilməsinə zəmin yaradıb. Hələlik konkret layihə təqdim olunmadığına görə hansı istiqamətlərə vəsaitin ayrılacağı bəlli deyil. Gözlənilir ki, milli prioritetlər üzrə vəsaitlərin yönəldilməsi həyata keçiriləcək. Fiskal gəlir və xərclərimiz milli prioritetlərə uyğunlaşdırılıb. Buraya sosial təminatın, təhlükəsizliyin gücləndirilməsi, eyni zamanda, işğaldan azad olunmuş ərazilərin bərpası və iqtisadi fəaliyyətin dəstəklənməsi kimi sahələr aiddir.

***-Büdcədə gözlənilən artımın maaş, pensiya, müavinət və s.-nin artmasına da təsir edəcəkmi?***

-Hələlik büdcəyə ediləcək dəyişikliklər layihəsi Nazirlər Kabinetindədir və Milli Məclisə təqdim olunmayıb. Layihə parlamentə təqdim edildikdən sonra konkret xərc istiqamətləri ilə tanış olub onlar üzrə müzakirələr aparmaq mümkün olacaq.

***-Bildiyiniz kimi, ölkəmizin suveren ərazilərində, Ermənistanla sərhəddə, Laçın-Xankəndi yolunun başlanğıcında nəzarət-buraxılış məntəqəsi qurulub. Bu məntəqə ölkəmizə iqtisadi baxımdan hansı töhfə verəcək?***

-Dövlət Sərhəd Xidmətinin Laçın yolunda nəzarət-keçid məntəqəsi yaratması tarixi hadisədir. Həmin məntəqə Azərbaycanın suveren sərhədlərində yaradılıb. Azərbaycan beynəlxalq hüquq prinsiplərinə uyğun olaraq belə bir məntəqənin yaradılmasını həyata keçirdi. Düşünürəm ki, Azərbaycan tarixində bu hadisə xüsusi yerə malikdir. Təbii ki, ölkəmiz üçün siyasi, strateji və ərazi bütövlüyünün qorunması baxımından vacibdir. Bu, eyni zamanda, iqtisadi hadisədir. Azərbaycanın suveren sərhədlərində nəzarət-buraxılış məntəqələrinin qurulması həm də ölkəmizin uzun müddət işğal altında qalan, hazırda Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi ərazilərdəki mövcud ehtiyatların talan edilməsinin qarşısını alacaq. İlkin qiymətləndirmələr göstərir ki, 30 illik işğal müddətində Ermənistan Azərbaycan ərazisindən milyardlarla dollarla ifadə olunan sərvətləri talan edərək Ermənistana və xarici ölkələrə aparıb. Müşahidələr göstərirdi ki, Vətən müharibəsindən sonra Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi ərazilərdə də bu proses davam edirdi. O baxımdan məntəqənin yaradılması Azərbaycan sərvətlərinin talan edilməsinin qarşısını alacaq. Bu həm də ölkəmiz üçün iqtisadi əhəmiyyət daşıyır. Belə ki, Azərbaycanın təbii ehtiyatlarının qanunvericiliyimiz çərçivəsində istifadə imkanları deməkdir. Bu həm də dayanıqlı sülhün əldə olunması istiqamətində atılan addım kimi qiymətləndirilməlidir. Dayanıqlı sülhün əldə edilməsi, ölkələrin qarşılıqlı olaraq ərazi bütövlüklərini tanıması, regionun inkişafı baxımından vacibdir.



***-Aprelin 26-da parlamentin Əmək və sosial siyasət komitəsində “Sosial müavinətlər haqqında” qanuna təklif edilən dəyişikliklər müzakirə olunaraq plenar iclasa tövsiyə olunub. Yeni müavinətlər kimlərə veriləcək?***

-Dəyişikliklərə əsasən, himayədar ailəyə verilmiş uşağın, o cümlədən 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağın tərbiyə edilməsinə görə aylıq müavinətlər ödəniləcək. Bu müavinət himayədar valideynlərlə dövlət qurumu arasında uşağın, o cümlədən 18 yaşınadək əlilliyi müəyyən edilmiş uşağın himayədar ailəyə verilməsinə dair müqavilə bağlanıldıqdan sonra ödəniləcək. Müavinətin məbləği dəyişikliklərin qəbulundan sonra müəyyənləşəcək. Digər dəyişikliyə əsasən, həmin uşaqlara mövsümi geyim alınması üçün birdəfəlik müavinətlər də ödəniləcək. Bu zaman da oxşar müqavilənin bağlanması əsas şərtdir. Bu müavinət müqavilə bağlanıldıqdan sonra ildə 4 dəfə (mart, iyun, sentyabr və dekabr aylarında) ödənilməklə, həmin müqavilənin qüvvədə olduğu müddətə təyin edilir. Dəyişikliklərin məqsədi uşaqları himayəyə götürən ailələrin sosial vəziyyətini daha da yaxşılaşdırmaq və kimsəsiz uşaqların ailələrdə böyüməsini stimullaşdırmaqdır.

***-Son vaxtlar əsas müzakirə olunan məsələlərdən biri də quru sərhədlərin açılması ilə bağlı idi. Məlum olduğu kimi, xüsusi karantin rejiminin müddəti iyulun 1-dək uzadılıb. Buna baxmayaraq yaxın vaxtlarda quru sərhədləri açıla bilərmi?***

-Xüsusi karantin rejiminin uzadılmasına rəğmən ötən müddətdə xeyli məhdudiyyətlərin aradan qaldırılması və yumşaldılmasını müşahidə etdik. Bizim də təklifimiz ondan ibarətdir ki, quru sərhədlərinin mərhələli şəkildə açılması ilə bağlı müzakirələr davam etdirilsin. Operativ Qərargah tərəfindən həm ölkəmizdə, həm də qonşu dövlətlərdə epidemioloji vəziyyətə uyğun olaraq quru sərhədlərinin mərhələli şəkildə açılması ilə bağlı qərarın verilməsi məqsədəuyğun olardı. İlk növbədə Gürcüstan və Türkiyə ilə quru sərhədlərinin mərhələli şəkildə tam açılması reallaşa bilər. Nəzərə alsaq ki, hər iki ölkədə epidemioloji vəziyyət nəzarətdədir və onlar Azərbaycanın strateji tərəfdaşlarıdır. Bütün bunlar imkan verir ki, həmin ölkələrlə quru sərhədlərinin mərhələli olaraq açılması ilə bağlı qərar verilsin. Quru sərhədlərin açılması həm də iqtisadi məsələdir. Bu, turizmin inkişafı, eləcə də vətəndaşlarımızın xaricə daha asan və az xərclə səfərləri baxımından vacibdir. Qardaş Türkiyə və qonşu Gürcüstanla strateji əlaqələrimizi nəzərə alsaq, bu istiqamətdə quru sərhədlərinin açılması məqsədəuyğun olardı.

***Anar Kəlbiyev***

# Oqtay Şirəliyevin adı yeni qalmaqalda

## Səhiyyə Nazirliyinin yoxlamalara başladığı institutun direktorunu sabiq nazir qoruyur?



***Bir neçə gün öncə mətbuatda Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Kardiologiya İnstitutunda yoxlamalara başlandığı barədə məlumat yayılıb.***

"Hazırda institutda monitorinqlər davam etdirilir. İlkin məlumata görə, institutun bazası, personal və xidmətlər bütünlüklə təftiş olunacaq" deyə bu barədə yayılan informasiyada bildirilib.

Faktı oxu.az-a Elmi-Tədqiqat Kardiologiya İnstitutunun Mətbuat Xidmətindən təsdiq ediblər. Əlavə edilib ki, bu proses Səhiyyə Nazirliyinin keçid dövrü ilə əlaqədar aparılır: "Elmi-Tədqiqat Kardiologiya İnstitutu Səhiyyə Nazirliyinin tabeliyinə 2023-cü il yanvar ayının 1-dən verilib. Hazırda institutda Prezidentin 2006-cı il 25 may tarixli 413 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi haqqında Əsasnamə"nin bəndi rəhbər tutularaq qurumun cari vəziyyətinin müəyyən edilməsi ilə əlaqədar monitorinq aparılır. Yoxlama tək bizim institutda deyil, bizdən öncə daha iki institutda da aparılıb. Proses mərhələli şəkildə digər institutlarda da davam etdiriləcək".

Xatırladaq ki, bir müddət öncə Elmi-Tədqiqat Kardiologiya İnstitutunun direktoru Gülnaz Dadaşovanın təcrübəli həkimləri, professorları işdən uzaqlaşdırması, bəzilərini isə müxtəlif bəhanələrlə aşağı vəzifələrə təyin etməsi, eləcə də bir sıra digər ciddi nöqsanlarla bağlı məlumat yayılmışdı.

Bəzi kütləvi informasiya vasitələrində dərc edilən yazılarda iddia edilir ki, Elmi-Tədqiqat Kardiologiya İnstitutunda bir çox özbaşınalıq baş verir. İddialara görə, institutun direktoru Gülnaz Dadaşova işçilərlə çox kobud rəftar edir. Kolleqaları arasında yaşda özündən böyük olan alimlərə, professorlara, mütəxəssislərə hörmət etmir. Direktorun qəbuluna düşmək isə mümkün deyil.

"Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Kardiologiya İnstitutunun direktoru Gülnaz Dadaşova təcrübəli həkimləri işdən uzaqlaşdırır, bəzilərini isə müxtəlif bəhanələrlə aşağı vəzifələrə təyin edir" - bu barədə isə ötən həftə institutun bir qrup işçisinin "Bakupost"a şikayətində deyilirdi. Onların bildirdiyinə görə, Gülnaz Dadaşova direktor təyin olunduqdan sonra institutdakı işgüzar mühit tamamilə dəyişib: " O, uzun illər institutda çalışan tanınmış həkimləri müxtəlif bəhanələrlə buradan didərgin salıb və ya "zərərsizləşdirib. İstəyir ki, hamı ona baş əysin, biət etsin. Özündən yaşca və təcrübəcə böyük olan alimləri, professorları saatlarla qapısının ağzında gözlətdirir, onlarla kobud rəftar edir, lazımsız tələblər irəli sürür, yersiz izahatlar yazdırır. İstəyir ki, hamı bezib öz ərizəsi ilə işdən çıxsın. Onun bu hərəkətlərinə qarşı çıxanları isə şər-böhtan atmaqla işdən uzaqlaşdırır".

Direktorun institutda VİP otaqlar hazırlatdırdığı və həmin otaqları imkanlı xəstələrə pulla verdiyinə dair də iddialar irəli sürülüb. Sitat: "Direktor eyni zamanda institutda aparılmayan bəzi müayinələr, xüsusilə koronar angioqrafiya (anju) üçün 2-3 özəl klinika ilə (xüsusilə "Kəpəz" klinikası) "otkat" qarşılığında işləyir, həmin tibb mərkəzlərindən aylıq haqq alır. Paytaxtın əsas ürək mərkəzində nə rentgen cihazı var, nə angioqrafiya. Direktor institutun olan-qalan imkanlarını da aradan qaldırıb. O da maraqlıdır ki, 44 yaşında ölkənin əsas elmi insitutlarından birinə direktor təyin olunan 48 yaşlı Dadaşova həm də 45 yaşdan professor elmi dərəcəsi ala bilib".

Maraqlıdır ki, bu qədər ağır ittihamlara institut rəhbərliyinin rəsmi reaksiyasında deyilənlərin bircəciyinə də münasibət ifadə olunmayıb. Sadəcə o yazılıb ki: "Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Akademik C.M.Abdullayev adına Elmi-Tədqiqat Kardiologiya İnstitutu İcbari tibbi sığortanın xidmət zərfi çərçivəsində xidmət göstərir. Eyni zamanda, elektron məktubunuzda qeyd etdikləriniz həqiqəti əks etdirmir. Nəzərinizə çatdırırıq ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 2018-ci il 20 dekabr tarixli 418 №-li "Azərbaycanda icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Fərman imzalanıb. Bu fərmana əsasən, Azərbaycan Respublikasının vətəndaşları İcbari tibbi sığortanın xidmətlər zərfindən yararlanır". Vəssalam, şüttəmam!

Son gələn məlumatlar isə bu yöndədir ki, artıq G.Dadaşovanın vəzifədən azad edilməsi gündəmdədir. Səhiyyə Nazirliyinin yoxlamaları bitdikdən sonra bu istiqamətdə qərar veriləcəyi gözlənilir. Lakin o da vurğulanır ki, sabiq səhiyyə naziri Oqtay Şirəliyev keçmiş kadrını mümkün yollarla qoruyur.

Məsələ bundadır ki, Elmi-Tədqiqat Kardiologiya İnstitutunun hazırkı direktoru bu vəzifəyə 2018-ci ildə məhz Şirəliyev tərəfindən təyinat alıb. Belə ki, həmin vaxt Adil Baxşəliyev "öz xahişi ilə" tutduğu vəzifəsindən azad edilib. Onu isə G.Dadaşova əvəzləyib.

Yeri gəlmişkən, bəhs olunan dövrdə A.Baxşəliyevin "öz xahişi ilə" direktor postundan getməsinə şübhə ilə yanaşılıb. İddia edilib ki, sabiq səhiyyə naziri məhz yaxın adamını sözügedən posta təyin etdirmək üçün keçmiş direktor üzərində basqı qurub.

Başqa bir ilginc iddia isə hazırkı direktorun O.Şirəliyevlə qohumluq əlaqəsi ilə bağlıdır. Deyilənə görə, G.Dadaşova Azərbaycandakı tanınmış şirkətlərdən birinin rəhbərinin əmisiqızıdır. Həmin şirkət rəhbərinin isə Şirəliyevlə quda olduğuna dair xəbərlər yayılıb. Lakin bu xəbərlər indiyədək təkzib edilməyib.

***Sənan Mirzə***



# Azərbaycanda çoxluq Ərdoğanın qalib gəlməsini dəstəkləyir - SORĞU

***Azərbaycanda respondentlərin 90.4%-i mayın 14-də Türkiyədə keçiriləcək seçkilərdə "Cümhur İttifaqı"nın prezidentliyə namizədi, hakim Ədalət və İnkişaf Partiyasının sədri, hazırki dövlət başçısı Rəcəb Tayyib Ərdoğanın qalib gəlməsini dəstəkləyib.***

"Unikal" xəbər verir ki, bu, Sosial Tədqiqatlar Mərkəzinin apardığı rəy sorğusu nəticəsində məlum olub. Qurumun İdarə Heyətinin sədri, deputat Zahid Oruc bildirib ki, sorğuda iştirak edənlərdən seçkilərdəki dörd namizəddən hansını dəstəklədiyi və hansı namizədin qalib gələcəyini ehtimal etdiyi barədə rəylərini qeyd etməsi istənilib: "Onların 5.1%-i Kamal Kılıçdaroğlunu, 0.8%-i Məhərrəm İncəni, 0.1%-i Sinan Oğanı qalib görmək istədiyini bildirib. İştirakçıların 3.5%-i hansı namizədi dəstəkləməsi ilə bağlı rəyini bölüşməyib.

İştirakçılar arasında Kamal Kılıçdaroğlunu tanıyanların 89.5%-i, Sinan Oğanı tanıyanların 89.8%-i, Məhərrəm İncəni tanıdığını qeyd edənlərin 87.8%-i prezident vəzifəsində yenidən Rəcəb Tayyib Ərdoğanı görmək istədiyini ifadə edib".

Sorğu iştirakçılarının namizədlərə olan dəstəyi ilə yanaşı, hansı namizədin qalib gələcəyi ilə bağlı ehtimalları öyrənilib.

Respondentlərin 87.8%-i 14 mayda keçiriləcək prezident seçkilərində Rəcəb Tayyib Ərdoğanın qalib gələcəyini düşünür.

Cəmi 6.3% Kamal Kılıçdaroğlunun qalib gələcəyi ehtimalını bölüşərkən, Məhərrəm İncə və Sinan Oğan cavabını qeyd edənlər 0.8% və 0.3% təşkil edib. Respondentlərin 5.9%-i bu barədə fikir bildirməkdə çətinlik çəkib. Ərdoğanı dəstəkləyənlərin 96.7%-i onun qalib gələcəyini ehtimal edib. Həmçinin Kılıçdaroğlunu dəstəkləyənlərin (6.3%) yarısı seçkilərdə Ərdoğanın qalib gələcəyi ehtimalını bölüşüb.

Z.Oruc qeyd edib ki, respondentlərdən adını qeyd etdiyi namizədi hansı səbəblərlə dəstəklədiyi soruşulub və onlara ən çox 3 cavab variantı qeyd etmək imkanı verilib: "İştirakçıların mütləq əksəriyyəti tərəfindən dəstəklənən Rəcəb Tayyib Ərdoğanla bağlı rəylərini nəzərdən keçirdikdə, onların əsas hissəsi, yəni 55.7%-i öz mövqeyini Ərdoğanın Vətən müharibəsində Azərbaycana göstərdiyi dəstəklə əsaslandırıb.

Göründüyü kimi, respondentlərin 87.8%-i keçiriləcək seçkilərdə Prezident Ərdoğanın qalib gəlməsini dəstəkləyir. Məhz Qarabağ müharibəsində Azərbaycana olan dəstəyinə görə (55.7%), Azərbaycanın maraqlarını müdafiə etdiyinə görə (51.1%), liderlik keyfiyyətlərinə görə 29.4% və digər səbəblər burada vətəndaşlarımızın mövqelərinin formlaşmasına təsir edir".

Sorğuda iştirak edənlərin 68.7%-i namizədlər arasında yalnız R.T.Ərdoğan seçilərsə, Türkiyənin bütün imkanları ilə Azərbaycanın yanında olmağa davam edəcəyini qeyd edib. (Bu göstərici eyni zamanda Türkiyə dövlətinin Azərbaycana olan münasibətində siyasi liderin həlledici xarakter daşıdığını göstərir). Respondentlərin 26.0%-i isə namizədlərin hansının seçilməsindən asılı olmayaraq, Türkiyə dövlətinin Azərbaycana dəstəyinin davam edəcəyini düşünür.

# “Mənim üçün İsa Qəmbərin fikri önəmlidir, oğlunun yox” - Pənah Hüseyn



***İlkin Qəmbərin qondarma ”erməni soyqırımı” ilə bağlı sosial şəbəkə hesabındakı paylaşımı onun mövqeyini əks etdirir və mən buna təəssüf edirəm.***

Bunu Modern.az-a açıqlamasında Azərbaycan Xalq Partiyasının sədri, sabiq baş nazir Pənah Hüseyn deyib.

O bildirib ki, Azərbaycan cəmiyyəti üçün İsa Qəmbərin fikri önəmlidir, oğlu İlkin Qəmbərin yox.

”Mən düşünürəm ki, Azərbaycan xalqı, vətəndaşlarımız, ümumilikdə hər birimiz üçün İlkin Qəmbərin yox, İsa Qəmbərin fikri önəmlidir. Əlbəttə, İlkin Qəmbərin ”Twitter” hesabında belə bir yazı yazmasına sadəcə təəssüflənirəm. İsa bəy də bu mövzu haqqında öz mövqeyini bildirib”, - deyə sabiq baş nazir vurğulayıb.

Qeyd edək ki, Müsavat Partiyasının keçmiş başqanı İsa Qəmbərin Kanadada yaşayan oğlu İlkin Qəmbərin qondarma ”erməni soyqırımı” ilə bağlı sosial şəbəkə hesabında etdiyi paylaşım etiraz doğurub.

“Bu gün erməni soyqırımının anım günüdür. Bir də heç vaxt”, - deyə tviterdə ermənilərin uydurma tarixini yad edən İ. Qəmbər tənqidlərdən sonra sosial media hesabını yalnız dostları üçün açıq edib.

İsa Qəmbər yerli mediaya açıqlamasında oğlunun fikirləri ilə müəyyən məqamlarda razı olmadığını deyib. ”Biz son illər, təxminən 7-8 ildir ki, görüşmürük. Bu məsələləri üz-üzə oturub müzakirə etmək imkanımız olmayıb”, - deyə o bildirib. Müsavatın keçmiş başqanı İlkin Qəmbərin qondarma ”erməni soqırımı” ilə bağlı səhv mövqedə olduğunu və oğlunun paylaşımının özü üçün gözlənilməz olduğunu vurğulayıb.

# Xankəndi-Laçın yolunda sülhməramlıların avtomobilləri keçdi

***Dünən Şuşadan keçən Xankəndi-Laçın yolunda Rusiya sülhməramlılarına məxsus avtomobillərin hərəkət etməsinə növbəti dəfə şərait yaradılıb.***



“Unikal” xəbər verir ki, toplanış yerində nəqliyyat vasitələrinin maneəsiz hərəkəti təmin olunub.

Belə ki, sülhməramlılara məxsus 1 minik və 27 yük avtomobili Xankəndidən Laçın istiqamətinə maneəsiz hərəkət edib.

Bu, bir daha onu sübut edir ki, yol aksiyanın keçirilməsinə baxmayaraq, humanitar məqsədlər üçün açıqdır.

Xatırladaq ki, Qarabağda faydalı qazıntı yataqlarının qanunsuz istismarı əleyhinə Şuşadan keçən Xankəndi-Laçın yolundakı etiraz aksiyası 137 gündür davam edir.

Belə ki, Şuşa ərazisində Rusiya sülhməramlılarının nəzarətində olan yolun bir hissəsində etiraz aksiyası azərbaycanlı fəallar və ekologiya üzrə qeyri-hökumət təşkilatlarının (QHT) üzvləri tərəfindən Qarabağ iqtisadi rayonunda ekoloji terrora son qoyulması tələbi ilə keçirilir.

2022-ci il dekabrın 3-də və 7-də Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə aparılmış müzakirələrin nəticəsi olaraq İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və “AzerGold” Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər fəsadlarla bağlı ilkin monitorinq aparmalı idi. Lakin sülhməramlıların hərəkətsizliyi ucbatından monitorinq baş tutmayıb.

# Əhməd Vəliyevə 3 milyon manatlıq şok

## "Muğanbank"ın xalis mənfəəti niyə 29 dəfə azalıb, şirkətlər bu banka qoyduğu 70 milyon manatını nə üçün çıxarıb?

***”Muğan Bank” ASC-in son 3 ayda xalis mənfəəti kəskin şəkildə azalıb. Adıçəkilən bank 2023-cü ilin I rübündə 102,9 min manat xalis mənfəət əldə edib ki, bu da ötən ilin eyni dövrünə nisbətən 29,3 dəfə azdır. Bank 2022-ci ilin ilk rübündə 3,01 milyon manat xalis mənfəət açıqlamışdı. Rüblük maliyyə hesabatına görə, bankın faiz gəlirlərinin həcmi illik müqayisədə 17,7% artaraq 10,7 mln. manat təşkil edib. Bankın faiz xərcləri isə 31,2% artaraq 10,5 milyon manat olub. Nəticədə bankın xalis faiz gəlirləri 161.9 min manat təşkil edib. Lakin bu da ötən ilin eyni dövrünə nisbətən 5,8 dəfə azdır.***

Bankın qeyri-faiz gəliri 31,8% azalaraq 7,6 mln. manat, qeyri-faiz xərcləri isə 5,6% artaraq 7,1 mln. manat təşkil edib. Bu dövrdə Bankın əməliyyat mənfəəti 149,4 min manata (32,5 dəfə az) bərabər olub.

Həmçinin, 1 aprel 2022-ci il tarixinə bankın cəmi aktivləri 7,4% azalaraq 739,8 milyon manata enib, o cümlədən kredit portfeli 6,9% azalaraq 416,7 milyon manata enib. ”Muğan Bank”ın öhdəlikləri isə 8,5% azalaraq 646,5 milyon manata bərabər olub, o cümlədən depozit portfeli 12,8% azalaraq 428,01 milyon manata düşüb. Son üç ayda şirkətlər bankdakı əmanətlərini 2,9 dəfə və ya 63,6 milyon manat azaldaraq 33,6 milyon manata endiriblər.

Bu ilin birinci rübündə bank cəmi kapitalını 0,2% artıraraq 93,3 milyon manata çatdırıb.

Qeyd edək ki, ”Muğanbank” bank dairələrində daha çox ”Odlar Yurdu” Universitetinin rektoru, sabiq deputat Əhməd Vəliyevin bankı kimi tanınır. Mətbuatda sözügedən bankın adı hətta ”MTN işində” belə hallandırılıb və riskli banklardan biri kimi təqdim olunub.

Məlumat üçün onu da bildirək ki, bankın səhmdarlarının nizamnamə kapitalındakı pay bölgüsü aşağıdakı kimidir: Mehdiyev Elmir Maqbet oğlu - 63,50 faiz (Ə.Vəliyevin kürəkəni, həmçinin bankın Müşahidə Şurasının sədri), Vəliyeva Vəfa Əhməd qızı - 12,05 faiz (Ə.Vəliyevin qızı), Mehdiyev Maqbet Rəhim oğlu - 13,10 faiz (Ə.Vəliyevin qudası, Tibb Universitetinin dosenti) Mehdiyeva Fəridə Cahandar qızı - 11.35 faiz (Ə.Vəliyevin qudası)g

Ə.Vəliyev özü isə bankın ona bağlılığını bir neçə dəfə inkar edib. Baxmayaraq ki, yuxarıdakı siyahıdan “Muğanbank”da sabiq deputat və rektorun ailə üzvlərinin tam paya sahib olduqları aydın görünür.



Xatırladaq ki, son illər mətbuatda ”Muğanbank”ın da çətin maliyyə vəziyyətinə düşdüyü, banka Mərkəzi Bank tərəfindən xəbərdarlıq edildiyi, bağlanma ehtimalının yarandığı və s. barədə məlumatlar yer alıb. Bu da təsadüfi sayılmır, çünki bankın maliyyə göstəriciləri son illərdə onun vəziyyətinin qənaətbəxş olmadığından xəbər verirdi.

Yeri gəlmişkən, Azərbaycanda fəaliyyət göstərən kommersiya bankları 2022-ci ilin birinci yarısına dair maliyyə göstəricilərini açıqlayarkən aydın olmuşdu ki, həmin dövrdə ölkə iqtisadiyyatında yüksək inkişafa, əhalinin və biznes sektorunun yüksək gəlir əldə etməsinə baxmayaraq bəzi banklar durğunluq vəziyyətindən çıxa bilməyiblər. O zaman media yazırdı ki, onlardan biri “Muğanbank” ASC-dir. Bankın açıqladığı məlumatlardan görünürdü ki, ötən ilin ilk 6 ayında bank kiçilib. 2021-ci ilin sonunda aktivlərini 708,5 milyon manata qədər artıran bank, 2022-ci ilin ilk 6 ayında 698 milyon manat aktivə sahib olub. ”Aktivlərin kiçilməsi banklar və digər maliyyə institutlarındakı depozitlərin azalması ilə bağlıdır. 2022-ci ildə başqa banklarda 142 milyon manat depoziti olan “Muğanbank” hazırda 77,4 milyon manat depozitə sahibdir. “Muğanbank”ın digər banklardan vəsaitlərini çəkməsinin səbəbi maliyyə çətinliyi ilə üzləşməsidir. Belə ki, hüquqi şəxslər bankda olan vəsaitlərin çox hissəsini götürdüyündən “Muğanbank” çətin vəziyyətə düşüb. Hüquqi şəxslərin 2022-ci ilin əvvəlində 116 milyon manat depoziti olub. Lakin 6 ay sonra həmin depozitlər 54,8 milyon manata qədər azalıb. Depozitlərin azalması bankı çətin vəziyyətə salıb və buna görə də “Muğanbank” digər banklarda olan vəsaitinin bir hissəsini geri çəkib. O da bildirilir ki, ”Muğanbank” hüquqi şəxslərin hansı səbəbdən vəsaitlərinin çox hissəsini götürdüyünü açıqlamır” deyə ötən ilin yayında iqtisadiyyat saytları yazırdı.

O da vurğulanırdı ki, maliyyə sıxıntısı yaşayan bank bu vəziyyətdə fiziki şəxslərdən daha çox depozit cəlb etməyə çalışır. Bununla əlaqədar olaraq bankda depozit faizləri artırılıb. Faizlərin artırılması hesabına bankda fiziki şəxslərə aid olan depozitlər 24 milyon manat yüksələrək 305 milyon manata çatıb.

Lakin bu ilin ilk 3 ayına dair hesabatdan aydın olur ki, Əhməd Vəliyevə aid edilən bankın depozit portfeli 12,8% azalaraq 428,01 milyon manata düşüb. Üstəlik, bu ilin ilk rübündə şirkətlər bankdakı əmanətlərini 2,9 dəfə və ya 63,6 milyon manat azaldaraq 33,6 milyon manata endiriblər...

Bütün bunlar ”Muğanbank”da işlərin heç də yaxşı getmədiyinə dair bir müddətdir irəli sürülən iddiaların əsassız olmadığını söyləməyə imkan verir...

***Toğrul Əliyev***

# Məmurların 349 milyon manatlıq oyunu...

## Uyğunluq auditi yoxlanılmış hər 100 manatdan 21-i  hara gedib?

***Hesablama Palatasının 2022-ci il üçün hesabatından görünür ki, aparılan 28 auditin 26-da dövlət satınalmaları ilə bağlı pozuntu qeydə alınıb. Bunu yola salmaq üzrə olduğumuz həftə iqtisadçı deputat Vüqar Bayramov bildirdi.***

Palatanın hesabatından o da aydın olur ki, 2022-ci ildə uyğunluq auditi üzrə maliyyə pozuntularının məbləği 481 milyon manat olub. Bu həmin audit çərçivəsində baxılmış ümumi məbləğin 21 faizidir. Bu audit çərçivəsində 2 milyard 353 milyon manat audit olunub. Bu o deməkdir ki, uyğunluq auditi çərçivəsində yoxlanmış hər 100 manatın 21 manatında pozuntu qeydə alınıb. Eyni zamanda uyğunsuzluq müəyyənləşdirilmiş məbləğin 73 faizi, yəni nə az, nə çox, düz 349 milyon manatın geri qaytarılması mümkün olmayan vəsaitlərdir!

Bu isə kifayət qədər ciddi maliyyə araşdırması tələb edir.

Əks təqdirdə biz növbəti illərdə daha böyük məbləğlərin məmur səhlənkarlığı və tamahı ucbatından "qeybə çəkildiyinə" şahidlik edə bilərik.

Yeri gəlmişkən, iqtisadçı deputat onu da qeyd edib ki, Hesablama Palatası fəaliyyət göstərdiyi dövrdə yalnız bir dəfə pre-audit keçirib. Sitat: "Halbuki, pre-audit nəzarətin keyfiyyətinin artırılması baxımdan çox vacibdir. İNTOSAİ-in əsas tövsiyələrindən biri də informasiya texnologiyası auditi aparılmasıdır. Amma hələ də Palata tərəfindən bu audit növündən istifadə olunmur. Halbuki, bu auditdən istifadə nəzarətin miqyasının genişləndirilməsinə imkan yarada bilər".

Bayramov əlavə edib ki, 2022-ci ildə səmərəlilik (performance) auditin nəticələri 5-dir, yalnız 1 səmərəlilik auditin nəticəsində nəticəlilik ilə yanaşı qənaətlilik və səmərəlilik meyarları nəzərə alınıb. "Bu isə ondan xəbər verir ki, səmərəlilik auditin meyarlarının təkmilləşdirilməsinə ehtiyac var. Eyni zamanda, səmərəlilik auditin ümumi auditdə payı cəmi 11.9 %, orta müddətli dövr üçün hədəf isə 15.0 faiz idi. Səmərlilik auditin sayının az olması nəzarət mexanizmlərinin keyfiyyətinə birbaşa təsir göstərir", - millət vəkili vurğulayıb.

Beləliklə, həm Hesablama Palatasının 2022-ci ilə dair hesabatından, həm də iqtisadçı-deputatın dediklərindən aydın olur ki, Azərbaycanda, əsasən, dövlət satınlamaları sahəsində ciddi problemlər qalmaqdadır. Bir az da dəqiqləşdirsək, tenderlərin şəffalığı, ədalətliliyi hələ də xeyli dərəcədə şübhə altındadır, məmurlar tenderləri bir çox hallarda müxtəlif yollarla büdcə vəsaitlərini havaya sovurmaq, effektsiz, səmərəsiz xərcləmək üçün vasitəyə çevirirlər.

Acınacaqlısı odur ki media-nın, müstəqil iqtisadçıların, millət vəkillərinin çoxsaylı çağırışlarına baxmayaraq bir çox vəzifə sahibləri dövlət satınalmaları sayəsində şəffaflığı təmin eləməkdə maraqlı görünmürlər. Şübhəsiz ki, burada məqsəd aydındır - dəfələrlə vurğuladığımız kimi, bəzi məmurlardan ötrü tenderlər ən rahat və asan korrupsiya üsulu olaraq qalır. Ekspertlər həmişə bildirirlər ki, qanunda hər hansı tenderdə qalib olan şirkətin həmin sahədə ağılabatan təcrübəyə və gərəkli nizamnamə kapitalına malik olması şərtdir. Ancaq müəyyən məmurlar hələ də qanunvericiliyin tələblərindən yox, şəxsi maraqlarından çıxış eləməkdə israrlıdırlar.

Təsadüfi deyil ki, tenderlərlə bağlı ölkə başçısı da kifayət qədər kəskin tənqidi fikirlər səsləndirmişdi. Prezident bildirmişdi ki, həbs edilmiş icra başçıları tender prosedurlarını kobudcasına pozurdular: "Yəni, dövlət xətti ilə aparılan layihələrin, dövlət alışlarının icrası ilə əlaqədar tenderlərdə adətən bir neçə icra başçısına, ya da ki, onun müavininə yaxın olan şirkətlər qalib gəlirdilər. Nə üçün? Çünki burada da rüşvətxorluq və mənimsəmə halları kütləvi xarakter alırdı və bu da dövlət büdcəsinə böyük ziyandır"...

Lakin bir sıra vəzifə sahibləri hələ də "köhnə hamam, köhnə tas" prinsipi ilə işləməyi üstün tuturlar. Onlar büdcə vəsaitlərinə xalqın və dövlətin malı kimi yox, "dədə malı" kimi baxmaqda davam edirlər. Ən əsası isə bu günədək həbs olunan icra başçılarının, ayrı-ayrı nazirliklərin rəhbər şəxslərinin cinayət dosyelərindən nəticə çıxarmayaraq, şübhəli, müəmmalı tender sövdələşmələrindən çəkinmirlər.



Gəlin unutmayaq ki, ötən il auditi aparılmış və uyğunsuzluq müəyyənləşdirilmiş məbləğin 73 faizi, yəni 349 milyon manatın geri qaytarılması mümkün olmayan vəsaitlərdir. Belə böyük məbləğ çoxsaylı suallara yol açır, bu da qarşıdakı mərhələdə ciddi maliyyə araşdırmalarının aparılmasını qaçılmaza çevirir. Bunu isə yeni məmur həbslərinə aparacaq yolun başlanğıcı kimi də qiymətləndirmək olar.

Odur ki gözləyək...

***Toğrul Əliyev***

# Ombudsman Ermənistanla bağlı etiraz bəyanatı yaydı



***Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva Ermənistanda etnik nifrət siyasətinin təbliğ olunması ilə əlaqədar etiraz bəyanatı yayıb.***

Ombudsman Aparatından "Unikal"a verilən xəbərə görə, bəyanatda deyilir: "25 aprel 2023-cü il tarixində Ermənistanda nifrət və terror siyasətinin dövlət səviyyəsində dəstəklənməsini təsdiqləyən növbəti hal baş verib. XX əsrin əvvəllərində ermənilər tərəfindən hazırlanaraq icra edilmiş, qisas mənası daşıyan "Nemezis" termini ilə adlandırılan terror əməliyyatının "qəhrəmanlarının şərəfinə" Ermənistanın paytaxtında dövlət rəsmilərinin iştirakı ilə təntənəli surətdə abidə açılması bunun aşkar sübutu oldu.

Azərbaycan və türk diplomatlarının, dövlət xadimlərinin amansız qətlini təşkil etmiş həmin gizli terror əməliyyatının təşkilatçıları və icraçılarının adlarının bu formada əbədiləşdirilməsi Ermənistanda terrorun dövlət siyasətinə çevrildiyini bir daha göstərmiş oldu.

Məlumdur ki, beynəlxalq səviyyədə hüquqpozma hallarının təkrarlanmasının qarşısının alınması və etimadın bərpası məqsədilə dövlətlər tərəfindən keçmiş yanlışların etiraf edilməsi təcrübəsi geniş təbliğ olunur. Ermənistan tərəfi isə bunun əksinə olaraq, barışığın əldə edilməsinə zidd addımlar ataraq, bölgədə gərginliyi artırmağa davam edir. Eləcə də ümumtanınmış normalara əsasən, törədilən əməllərin cinayət olmasına ədalət mühakiməsi yolu ilə qərar verilməli, təqsirkarlar müəyyən edildikdə isə qanun çərçivəsində cəzalandırılmalıdır, lakin Ermənistanda terror əməliyyatı ilə əlaqədar abidə ucaldılması insanların hər hansı əsas olmadan terror qurbanına çevrilməsinin təbliğatına xidmət edir.

Xatırladaq ki, bundan öncə də Ermənistanda nasizm tərəfdarı olmuş, erməni irqinin üstünlüyü və türk etnik mənsubiyyətinə nifrət ideologiyasının banisi Qaregin Njdenin xatirəsinə ehtiram olaraq abidə ucaldılmış, tərəfimizdən bu hala da etiraz bildirilmişdir.

Təəssüf ki, Ermənistanda uzun illərdir həyata keçirilən dövlət səviyyəli etnik nifrət təbliğatının ağır nəticələri özünü son günlər daha aşkar göstərir: əsir götürülmüş azərbaycanlı əsgərə qarşı qeyri-insani rəftar göstərilməsi və bu halın sosial şəbəkələrdə açıq şəkildə yayımlanması, ağırlıqqaldırma üzrə Avropa çempionatının açılışında Azərbaycan Dövlət Bayrağına qarşı təxribat, İrəvanda keçirilmiş aksiyada Azərbaycan və Türkiyə bayraqlarının birgə yandırılması, İrəvanda Ermənistan-Türkiyə futbol yığmalarının qarşılaşmasında erməni azarkeşlərin yuxarıda adıçəkilən "Nemezis" terror əməliyyatını təbliğ edən şüarlar qaldırması və s.

Bütün bunlar Ermənistanın hakim dairələrinin sülh qurucuğunda deyil, sülhün pozulmasında daha çox maraqlı olmasını göstərir.

Onilliklərdir Azərbaycana qarşı nifrət cinayətlərini davam etdirən Ermənistan, eyni zamanda, Azərbaycan ərazilərində basdırdığı minaların dəqiq xəritələrini ölkəmizə verməkdən yayınmaqla 10 noyabr 2020-ci il tarixindən bugünədək 300-ə yaxın insanın mina terrorunun qurbanına çevrilməsinə səbəb olmuşdur. Ötən gün vətəndaş cəmiyyəti nümayəndəsi olan Beynəlxalq Avrasiya Mətbuat Fondunun sürücüsünün Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində minaya düşməsi nəticəsində ayağının amputasiya olunması da növbəti belə fakt oldu.

İnsanların yaşamaq və sağlamlığın qorunması hüquqlarına etinasız yanaşmanın əyani göstəricisi olan bu kimi hallara qarşı dünya ictimaiyyəti tərəfindən qəti münasibət bildirilməməsi, bununla da Azərbaycana qarşı çoxsaylı terror əməlləri törətmiş Ermənistanın beynəlxalq hüquqa zidd olan növbəti təxribatlar törətmək üçün ruhlanması bizdə ciddi narahatlıq doğurur.

Azərbaycan Ombudsmanı olaraq, bir daha beynəlxalq ictimaiyyətə müraciət edir, insan hüquqlarının təmini kimi ali məqsədi rəhbər tutaraq Ermənistanın bölgədə və ümumilikdə beynəlxalq miqyasda mənfi təcrübə yaranmasına səbəb olan, cəzasızlıqla müşayiət olunan nifrət motivli əməllərinə münasibətdə sərt mövqe sərgiləməyə çağırıram".

# Azərbaycanda himayədar ailə olmaq istəyənlərin uçotu aparılacaq

***Azərbaycanda himayədar ailələrə verilmiş uşaqların və himayədar ailə (himayədar valideyn) olmaq istəyən ailələrin (şəxslərin) uçotu aparılacaq.***

"Unikal" xəbər verir ki, bununla bağlı Ailə Məcəlləsinə yeni 142-1-ci maddə (Himayədar ailələrə verilmiş uşaqların və himayədar ailə (himayədar valideyn) olmaq istəyən ailələrin (şəxslərin) uçotu) əlavə edilir.

Yeni maddəyə əsasən, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) himayədar ailələrə verilmiş uşaqların və himayədar ailə (himayədar valideyn) olmaq istəyən şəxsin (şəxslərin) vahid informasiya bazasını yaratmaq məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi üzərindən dövlət orqanlarının (qurumlarının) apardığı elektron informasiya ehtiyatlarından (məlumat bazaları, məlumat-axtarış sistemləri, reyestrlər və digər informasiya resursları) istifadə etməklə onların vahid uçotunu bu maddənin tələbləri nəzərə alınmaqla elektron formada aparacaq.

Məcəllənin 142-1.1-ci maddəsində qeyd edilən vahid informasiya bazasında aşağıdakı məlumatlar əks olunmalıdır:

-himayədar ailələrə verilmiş uşaqların soyadı, adı, atasının adı, cinsiyyəti, doğum tarixi, doğulduğu yer, FİN-i, qeydiyyat ünvanı, vətəndaşlığı və himayədar valideyn olmaq istəyən şəxsin (şəxslərin) soyadı, adı, atasının adı, FİN-i, qeydiyyat ünvanı, faktiki yaşadığı ünvan;

-himayədar ailələrə verilmiş uşaqların və himayədar valideyn olmaq istəyən şəxsin (şəxslərin) sağlamlıq vəziyyəti barədə məlumatlar;

-uşağın əvvəllər qəyyumluğa (himayəyə), himayədar ailəyə və ya övladlığa verilib-verilməməsi barədə məlumatlar;

-himayədar valideyn olmaq istəyən şəxsin (şəxslərin) təhsili (peşəsi), iş yeri, vəzifəsi barədə məlumatlar;

-himayədar valideyn olmaq istəyən şəxsin (şəxslərin) məhkumluğunun olub-olmaması barədə məlumatlar;

-himayədar valideyn olmaq istəyən şəxsin (şəxslərin) yaşayış şəraiti, gəlirləri və maliyyə öhdəlikləri barədə məlumatlar;

-himayədar valideyn olmaq istəyən şəxsin (şəxslərin) əvvəllər qəyyum (himayəçi), himayədar valideyn və ya övladlığa götürən şəxs olub-olmaması barədə məlumatlar;

-uşağın himayədar ailəyə verilməsi barədə müqavilənin müddəti barədə məlumat.

# Jurnalistlər ağacəkmə aksiyasında iştirak etdilər

***Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Medianın İnkişafı Agentliyi, Audiovizual Şura və Mətbuat Şurasının birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş ağacəkmə aksiyası keçirilib.***

"Unikal" xəbər verir ki, yaşıllıqların artırılmasına, ətraf mühitin sağlamlaşdırılmasına hər zaman böyük önəm vermiş Ulu Öndər Heydər Əliyevin 100-cü ildönümü münasibətilə həmin qurumların rəsmilərinin, media subyektlərinin rəhbərlərinin və nümayəndələrinin iştirakı ilə Müşfiqabad qəsəbəsində keçirilən ağacəkmə aksiyası zamanı Abşeron yarımadasının torpaq-iqlim şəraitinə uyğun Eldar şamı və zeytun ağacları əkilib.

Ağacəkmə aksiyasının keçirilməsində məqsəd Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini yad etmək, Ümummilli Liderin təbiətə, yaşıllıqlara qayğı ənənələrini davam etdirməkdir.

Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev jurnalistlərə açıqlamasında bildirib ki, ümumilikdə 480 hektara yaxın ərazidə ağac əkilib. Onun sözlərinə görə, budəfəki aksiyada 3 000 ağac əkilib.

MEDİA-nın İcraçı direktoru Əhməd İsmayılov ölkənin aparıcı media subyektlərinin təmsilçilərinin bu aksiyada böyük həvəslə iştirak etdiklərini qeyd bildirib.

# Emin Əmirullayevin nəticəsiz xəbərdarlıqları

## Məktəb bufetlərində xaos və korrupsiyanın axırına necə çıxmalı?

***Bu günlərdə Elm və Təhsil Nazirliyi qida blokunda nöqsanlara yol verən 6 məktəb direktoruna töhmət verildiyini, 168-nə xəbərdarlıq edildiyini bildirib.***

Belə ki, 2022-2023-cü illər ərzində Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi tərəfindən qida məhsullarının minimum keyfiyyət və təhlükəsizlik göstəricilərinin, o cümlədən qidalanmanın təşkili səviyyəsinin yoxlanılması məqsədilə qida bloku ilə təmin olunmuş 174 ümumi təhsil müəssisəsində yoxlama həyata keçirildiyi və nöqsanlara yol verən şəxslər barədə qanunamüvafiq tədbirlər görüldüyü barədə ictimaiyyətə daha əvvəl məlumat verilib.

"Qeyd olunan məsələ ilə əlaqədar Elm və Təhsil Nazirliyi tərəfindən müvafiq araşdırma aparılıb, nöqsanlara yol verən 6 ümumi təhsil müəssisəsinin rəhbərinə Əmək Məcəlləsinə əsasən töhmət verilib, 168 ümumi təhsil müəssisəsinin rəhbərinə isə xəbərdarlıq edilib", - deyə məlumatda qeyd edilib.

Qeyd edək ki, elm və təhsil naziri Emin Əmrullayev jurnalistlərə açıqlamasında deyib ki, son zamanlarda ümumtəhsil müəssisələrində qidalanma ilə bağlı baş verən xoşagəlməz halların Elm və Təhsil Nazirliyinə müəyyən qədər aidiyyəti var. Son baş verən hadisələrin biri qida zəhərlənməsi, digəri isə toksikoloji haldır.

Nazirin sözlərinə görə, qida məsələsi məktəblərdə iki yolla tənzimlənir: "Bunlardan biri bufetlərdir. Bu, özəl sektorların birgə fəaliyyəti əsasında qurulur. Onlar da aidiyyəti dövlət qurumlarının nəzarəti altında olur. Müəyyən edilmiş siyahıya uyğun müvafiq qidaların məktəbdə satışını təmin edirlər. İkinci model isə daha çox internat tipli məktəblərdədir. Burada uşaqlara gündə 4 dəfə verilən qidalar pulsuzdur. Biz əsasən uşaqlara verilən qidaların keyfiyyətli olmasına nəzarət edirik. Sanitar, gigiyenik qaydalara nəzarət müvafiq quruma aiddir. Bu il bir dəfə zəhərlənmə halı baş verdi və həmin məsələ araşdırılır. Müvafiq qaydada tədbirlər görülür".

Lakin ekspertlərin bir çoxu fərqli düşünür. Onların fikrincə, zəhərlənmə statistikası aparmaq doğru deyil. Fakt budur ki, məktəb bufetlərində xaos və korrupsiya hökm sürür. Bu isə zəhərlənmə hallarının arta biləcəyinin anonsudur. Yəni ciddi risklər yaradır. Ən əsası isə, xoşagəlməz haldır ki, Elm və Təhsil Nazirliyi bu istiqamətdə nəzarətin gücləndirildiyini, nöqsanlara yol verənlərin cəzalandırıldığını bildirsə də, vəziyyətin ürəkaçan olduğunu söyləmək mümkün deyil.

Problemin iki yönü var - birinci, məktəblərdə uşaqlara zərərli qidaların satışı sahəsində vəziyyət dəyişməyib; ikinci, məktəb bufetlərinin fəaliyyətinin təşkili ilə bağlı şübhəli məqamların, ciddi korrupsiya əlamətlərinin mövcudluğu! Belə olan təqdirdə hər hansı xəbərdarlıqla, töhmətlə nazirlik rəhbərliyinin nələrisə düzəltməyə çalışması effektsiz görünür.

Hər kəs bilir ki, məktəblərdə uşaqlara çipsi, kola, energetik içkilər, mənşəyi məlum olmayan kolbasa və sosislər satılması əvvəllər dəfələrlə ictimai müzakirə predmeti olub. Nəhayət bir neçə il əvvəl müqavilə bağlanılır. Elə müqaviləyə əsasən tərəflər şagirdlərə verilən yeməyin keyfiyyəti və təhlükəsizliyi üçün məsuliyyət daşıyır. Baxmayaraq ki, direktorlar bufetlərin özəl müəssisə olduğunu, buna görə də baş verə biləcək hansısa zəhərlənmə və ya təhlükəyə görə firmaların məsuliyyət daşıdığını söyləyirlər. Müqavilə əsasında həm məktəbə, həm də idarə və ya nazirliyə vəsait ödənilir. İcarə haqqını ödəmək üçün isə məktəblilərə suxarıdan tutmuş energetik içkilərə, çipsilərə, suxarılara, kolbasa və sosilərə qədər hər şey satılır.

Yeri gəlmişkən, ölkə üzrə məktəb bufetlərinin icarəsindən toplanan ümumi məbləğ də açıqlanmır.



Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən təhsil müəssisələrində qidalanma ilə bağlı vahid dövlət standartı müəyyənləşdirilib. Ümumtəhsil və ilk peşə təhsili müəssisələrində uşaq və yeniyetmələrin qidalanması zamanı istifadəsinə icazə verilməyən məhsulların siyahısı açıqlanıb. Amma araşdırmalar göstərir ki, bu standartlara bir çox hallarda əməl edilmir.

Bildirildiyinə görə, Azərbaycanda məktəb bufetləri fiziki və ya hüquqi şəxslərə icarəyə verilir. Nazirlər Kabinetinin qərarı ilə məktəblərdə iaşə xidmətini həyata keçirən şəxs və ya şəxslərlə məktəb rəhbərliyi, Bakı Şəhəri üzrə Təhsil İdarəsi və ya Təhsil Nazirliyi arasında

Başqa bir iddiaya görə, bu cür icarə müqavilələrindəki rəqəmlər bir çox hallarda reallığa uyğun olmur, yəni tərəflər bir rəqəmə anlaşır, əslində isə başqa bir rəqəm ödəyirlər.

Bir sözlə, məktəb bufetləri ilə bağlı çoxsaylı problemlər mövcuddur. Üstəlik, belə problemlər həm hər an övladlarımızın həyatını təhdid edir, həm də kimlər üçün isə yeyinti mənbəyi rolunu oynayır.

Bu durumu düzəltmək üçün isə Emin Əmrullayevin rəhbərlik etdiyi Elm və Təhsil Nazirliyinin təhsil müəssisəsi rəhbərliyinə xəbərdarlıqları hələ ki, yetərli görünmür. Adıçəkilən nazirliyin daha sərt addımlar atmasına əşhədü-ehtiyac var.

***Sənan Mirzə***

## 5.3.1. vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu;

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Azərbaycanda hüquqi dövlətin qurucusu

## Fəzail Ağamalı: "Keçən əsrin sonunda biz hüquqi dövlətin bütün elementlərini həyatımızda hiss etməyə başladıq".



***İnsan hüquqlarının qorunması, təmin olunması istiqamətində ölkəmiz uğurla addımlayır. Azərbaycan artıq dünyada müstəqil, hüquqi və demokratik dövlət kimi tanınır. Azərbaycanda hüquqi dövlətin qurulması müstəqillik tariximizlə səsləşir. Azərbaycan müstəqillik əldə etdikdən sonra insan hüquq və azadlıqlarının təmini məqsədilə hüquqi islahatlara başladı.***

Məhz ulu öndər Heydər Əliyevin sayəsində hər kəsin ən böyük haqqı olan yaşamaq hüququ bərpa olundu. Ölkəmizdə ölüm hökmü ləğv edilərək bu ali hüquq bərpa olundu. Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ölkəmizdə fikir, söz azadlığı bərpa edildi. İnsanların sərbəst toplaşaraq öz fikirlərini azad ifadə etməsinə imkan yaradıldı. Demokratik prinsiplərə cavab verən qanunvericilik bazası formalaşdırıldı. Heydər Əliyevin sədrliyi ilə Konstitusiya layihəsinin hazırlanmasına başlanıldı. Konstitusiyamızın hüquq sistemimizə gətirdiyi yenilik müstəqil məhkəmələrin yaradılması oldu. Vətəndaşların hüquq və azadlıqlarının təmini baxımından önəm daşıyan ədalət mühakiməsinin əlçatanlığı hüquqi dövlət quruculuğu prosesinin ən vacib mərhələlərindən biri kimi qiymətləndirilir. Bundan sonra "Polis haqqında", "Prokurorluq haqqında" və digər sahəvi qanunvericilik aktları qəbul edildi. İnsan hüquq və azadlıqlarının təminatı və müdafiəsi üçün ən vacib addım sayılan "İnsan hüquqları üzrə müvəkkil (ombudsman) haqqında" qanun qəbul edildi. Azərbaycanda Ombudsman Aparatı yaradıldı. Ümummilli Lider tərəfindən aparılmış hüquqi islahatlar, düzgün dövlət quruculuğu prosesi bu gün də onun siyasi kursunun layiqli davamçısı İlham Əliyev tərəfindən uğurla həyata keçirilir.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Fəzail Ağamalı "Unikal"a açıqlamasında deyir ki, Azərbaycanda hüquqi dövlət quruculuğu məhz Heydər Əliyevin adı ilə bağlıdır.

"Hər kəsə bəllidir ki, müasir Azərbaycan dövləti Heydər Əliyevin adı ilə bağlıdır. O müstəqil Azərbaycanın memarı və qurucusudur. Bu gün bizim əldə etdiyimiz naliyyətlərin kökündə məhz Ulu öndərin dövlətçilik baxımından gördüyü işlər, xidmətləri dayanır" deyə Fəzail Ağamalı bildirdi.

F. Ağamalı bildirib ki, Heydər Əliyev hüququ dövlət qurmaq üçün ilk növbədə buna mane olan amilləri aradan qaldırdı. Hakimiyyətə zorla gəlmək, hakimiyyəti zorakı ələ keçirmək cəhdlərinin qarşısını aldı: "Müstəqil dövlətimizin konstitusiyası hüquqi dövlətin əsaslarını müəyyənləşdirir. Bundan sonra Konstitusiyamıza uyğun olaraq sahəvi qanunlar qəbul edilməyə başladı. Dünyəvi dövləti qurmaq üçün ilk növbədə onun əsaslarını yaratmaq lazım idi. Heydər Əliyevin müdrikliyi və uzaqgörənliyi sayəsində bütün bunlar həyata keçirildi. Onun aparmış olduğu hüquqi islahatlar bu baxımdan mühüm əhəmiyyət kəsb etdi. Qanunvericilik aktları qəbul edildi, qanunvericilik bazası formalaşdı. Keçən əsrin sonunda biz hüquqi dövlətin bütün elementlərini həyatımızda hiss etməyə başladıq".

Deputat deyir ki, Heydər Əliyev bağışlamağa, humanizmə üstünlük verdi: "Onun bu addımı əfv fərmanlarında özünü ifadə etməkdədir. Çoxsaylı əfv fərmanları Heydər Əliyevdən sonra ənənəyə çevrildi. Onun layiqli davamçısı İlham Əliyev də bu ənənələrə söykənərək humanist qərarlar verdi, çoxsaylı əfv sərəncamları imzaladı. Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən də geniş xarakter daşıyan amnistiya aktları qəbul olunmuşdu. Biz Ulu öndərimizin bizə qoyduğu dövlətçilik dəyərlərinin sayəsində azad, demokratik ölkədə yaşayırıq".

Bir sözlə, dövlətçilik tariximizdə Ümummilli lider Heydər Əliyevin fəaliyyəti özünəməxsus yer tutur. "Azərbaycan Respublikasında demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi, milli ənənələrindən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir" deyən görkəmli şəxsiyyət Heydər Əliyevin rəhbərliyi ilə zaman keçdikcə bu sahədə böyük uğurlar qazanıldı. Hüquqi islahatlar sahəsində qəbul edilmiş çox önəmli sənədlərdən biri də 1996-cı il 8 iyun tarixdə imzalanmış "Avropa Şurası və Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi haqqında" sərəncamdır. Ümummilli liderin təməlini qoyduğu islahatların məntiqi nəticəsidir ki, bu gün müasir Azərbaycanın inkişafı davamlı prosesə çevrilib.

Azərbaycan Respublikası 2001-ci ildən etibarən İnsan Haqları üzrə Konvensiyaya qoşulub. Konvensiyanın 46-cı maddəsinə müvafiq olaraq Avropa Məhkəməsinin Azərbaycana münasibətdə qəbul edəcəyi qərarlar qəti olmaqla bütün dövlət orqanları, o cümlədən məhkəmələr üçün məcburidir. Həmin maddənin tələbinin pozulmaması üçün dövlətdə müvafiq mexanizm olmalı, milli məhkəmələr tərəfindən Avropa Məhkəməsinin presedent hüququna müraciət edilməlidir.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# Moskvada "Heydər Əliyev və Baykal-Amur magistral xətti" mövzusunda tədbir keçirilib

***27 aprel tarixində Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və "Azərbaycan Dəmir Yolları" QCS-nin təşəbbüsü, "Rusiya Dəmir Yolları" ASC, Rusiya Nəqliyyat Universiteti və Azərbaycanın Rusiyadakı Səfirliyinin birgə təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi çərçivəsində "Heydər Əliyevin Baykal-Amur magistral xəttinin tikintisində müstəsna rolu" mövzusunda tədbir keçirilib.***

"Unikal" xəbər verir ki, Rusiya Nəqliyyat Universitetində təşkil olunmuş tədbirdə əvvəlcə Heydər Əliyevin BAM-ın tikintisinə verdiyi töhfələri özündə ehtiva edən sənədli film nümayiş etdirilib.

Daha sonra tədbirdə çıxış edən rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Ümummilli Liderin Sovet İttifaqının ən nəhəng infrastruktur layihəsi hesab olunan BAM-ın uğurla həyata keçirilməsindəki fövqəladə xidmətlərindən danışıb.

Nazir qeyd edib ki, Ulu Öndər SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışdığı illərdə nəqliyyat sahəsinin kuratoru olaraq mükəmməl təşkilatçılıq bacarığı, qətiyyəti və inamı sayəsində BAM-ın inşasının uğurla başa çatdırılmasına nail olub: "Heydər Əliyev BAM dəmir yolu xəttinin tikintisini Sibirin və Uzaq Şərqin böyük kəşfi kimi qiymətləndirirdi. Çünki bu tikinti ilə dəmir yolu xətti zonasında faydalı qazıntılarla zəngin olan böyük bir ərazi istismara verilib. Heydər Əliyev qısa bir müddətdə BAM-ın coğrafi ərazisini mühüm sənaye bazasına, sosial-iqtisadi və mədəni mərkəzə çevirməyi bacardı".

Rusiya Federasiyası Prezidentinin köməkçisi İqor Levitin çıxış edərək bildirib ki, mürəkkəb geoloji struktura və sərt iqlimə malik ərazidə magistral və dəmir yollarının çəkilməsi əsl qəhrəmanlıq nümunəsi olub: "BAM-ın ərsəyə gəlməsi Sakit okean regionu və Avropa ölkələri arasında ən qısa marşrut olmaqla Sibirin və Uzaq Şərqin təbii ehtiyatlarından səmərəli istifadə edilməsinə əlverişli şərait yaratdı. Heydər Əliyevin BAM üzrə kurator işlədiyi dövrdə tikinti işləri xeyli intensivləşmiş, qarşıya qoyulan məqsədlərə tam nail olunmuşdu".

Tədbirdə "Azərbaycan Dəmir Yolları" QSC-nin rəhbərliyi, "Rusiya Dəmir Yolları" ASC-nin rəhbərliyi Azərbaycanın Rusiyadakı səfirliyinin diplomatları, Rusiyanın "BAM" İctimai Birliyinin üzvləri, Rusiyadakı Azərbaycan diasporunun üzvləri və tələbələr iştirak ediblər.

Daha sonra tədbir musiqiçilərin ifasında konsert proqramı ilə davam etdirilib. Sonda xatirə fotosu çəkilib.

Qeyd edək ki, Rusiya Nəqliyyat Universitetində təşkil olunmuş tədbirlər planı çərçivəsində rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Rövşən Rüstəmov universitetdə təhsil alan bir qrup azərbaycanlı tələbə ilə görüşüb, onların təhsil məsələləri ilə maraqlanıblar.

## “Minatəmizləmə sahəsində xidmətlərə görə” medalı ilə kimlər təltif ediləcək?



***“Minatəmizləmə sahəsində xidmətlərə görə” Azərbaycan Respublikasının medalı ilə kimlərin təltif ediləcəyi məlum olub.***

”Unikal”ın xəbərinə görə, bu, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin bu gün keçirilən iclasında müzakirə çıxarılaraq parlamentin plenar iclasına tövsiyə edilən “Minatəmizləmə sahəsində xidmətlərə görə” Azərbaycan Respublikasının Əsasnaməsində əksini tapıb.

Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər aşağıdakı xidmətlərinə görə təltif ediləcəklər:

- minatəmizləmə sahəsinin inkişafında fəal iştiraka görə;
- minatəmizləmə sahəsində səmərəli əməkdaşlığa verilən əhəmiyyətli töhfəyə görə;
- minatəmizləmə sahəsində Azərbaycan Respublikasının beynəlxalq əlaqələrinin inkişaf etdirilməsində və möhkəmləndirilməsində göstərilən xidmətlərə görə.

“Minatəmizləmə sahəsində xidmətlərə görə” Azərbaycan Respublikasının medalı döşün sol tərəfinə, Azərbaycan Respublikasının digər orden və medalları olduqda onlardan sonra taxılacaq.

“Minatəmizləmə sahəsində xidmətlərə görə” Azərbaycan Respublikasının medalı bürüncdən tökülmüş və qızıl suyuna çəkilmiş, dairəvi formalı, diametri 36 mm olan lövhədən ibarətdir.

## Son 3 ayda 28 uşaq övladlığa götürülüb



***Prezident İlham Əliyevin Fərmanı əsasında 1 noyabr 2019-cu ildən etibarən övladlığagötürmə sahəsində idarəetmə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə həvalə olunub. Ötən dövrdə bu sahədə idarəetmə və xidmətlərin elektronlaşdırılması təmin edilib və övladlığagötürmə prosesi e-sistem üzərindən həyata keçirilir.***

Nazirlikdən verilən xəbərə görə, övladlığa götürülən uşaqların ailələrdə fiziki-mənəvi inkişafının təmin olunmasına nəzarət edilməsi üçün uşaqlar 18 yaşına çatanadək övladlığagötürmənin ilk ilində hər rüb, növbəti illərdə ildə bir dəfə monitorinqlər həyata keçirilir. Birinci rübdə də bu istiqamətdə 155 monitorinq aparılıb. Son 3 ayda həmçinin reinteqrasiya tədbirləri nəticəsində sosial xidmət müəssisələrindən 19-u oğlan, 17-si qız olmaqla 36 uşaq öz bioloji ailələrinə qaytarılıb.

## 51 ağacın kəsilməsinə görə cinayət işi başlandı

***Ekoloji hüquqpozmalarla bağlı cinayət işi başlanıb.***

Zaqatala rayon prokurorluğundan verilən məlumata görə, Zaqatala rayonunun Göyəm kəndi ərazisində qanunsuz ağackəsmə barədə vətəndaş müraciəti üzrə rayon prokurorluğunda araşdırma aparılıb. Araşdırma zamanı rayonunun Göyəm bələdiyyəsinin mülkiyyətində olan torpaq sahəsində ümumilikdə 51 ədəd ağacın qanunsuz kəsilməsi nəticəsində təbiətə 60 min manatdan artıq ziyan vurulmasına əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı Zaqatala rayon prokurorluğunda Cinayət Məcəlləsinin 259.2.4 (külli miqdarda ziyan vurmaqla qanunsuz ağac kəsmə) maddəsi ilə cinayət işi başlanaraq istintaqın aparılması üçün aidiyyəti üzrə daxili işlər orqanlarına göndərilib.

# QHT-lər mina insidenti ilə bağlı bəyanat yayıb

***Qeyri-hökumət təşkilatları Beynəlxalq Avrasiya Mətbuat Fondunun ofisində ötən gün Suqovuşanda baş vermiş mina insidenti ilə bağlı beynəlxalq təşkilatlara, BMT agentliklərinə, vətəndaş cəmiyyəti qurumlarına və beynəlxalq ictimaiyyətə ünvanlanan bəyanat yayıb.***




“Unikal” xəbər verir ki, bəyanatda deyilir: ”2023-cü il aprelin 26-da Tərtər rayonunun işğaldan azad olunan Suqovuşan kandi ərazisində mina partlayışı baş verib. Hadisə nəticəsində Beynəlxalq Avrasiya Mətbuat Fondunun İcma Mina Aksiyası Komandasının sürücüsü Babaşov Xəzər Tariyel oğlu ağır bədən xəsarətləri alıb. Sağ ayağı dizdən aşağı amputasiya olunan Xəzər Babaşov 2013-cü ildan BAMF-da çalışıb. 20 ildən çoxdur ki, Mina Təhlükəsi ilə mübarizə proqramına qoşulan BAMF bu istiqamətdə çoxsaylı layihələr həyata keçirib, kampaniyalar başladıb, dəfələrlə bəyanatlarla çıxış edib və müxtəlif yerli və beynəlxalq tədbirlərin, konfransların, seminarların təşkilatçılığında yaxından iştirak edərək öz humanitar fəaliyyəti ilə bu bəşəri problemin həllinə töhfə verməyə çalışıb. 2002-ci ildən aktiv faaliyyət göstərən BAMF-in İcma Mina Aksiyası komandası bu günə qədər 10 min hektardan artıq ərazini mina və partlayıcı sursatlardan təmizləyib və son istifadəçiyə təhvil verib.

Çox təəssüf ki, Azərbaycan dünya ölkələri arasında mina və müharibənin partlayıcı qalıqları il çirklənmə səviyyəsinə görə ilk pillələrdədir. 30 illik işğal dövründə Azərbaycan əraziləri başdan başa minalanıb və ciddi şəkildə çirkləndirilib. Bu gün Azərbaycan Respublikası Minatəmizləmə Agentliyi (ANAMA) tərəfindən işğaldan azad olunmuş ərazilərimizdə intensiv şəkildə minatəmizləmə əməliyyatları aparılır. Ancaq bu gözəgörünməz düşməndən ən qısa zamanda xilas olmaq üçün maddi-texniki və kadr bazasının daha da inkişaf etdirilməsinə də ehtiyac vardır. Həmçinin nəzərə almaq lazımdır ki, Ermənistan tərəfindən doğru-dürüst mina xəritələri təqdim olunmayıb və bu da 1949-cu ildə qəbul edilmiş Cenevrə konvensiyasına və 1977-ci ildə əlavə edilmiş protokollara kobud şəkildə ziddir. Minalar erməni hərbi birləşmələri tərəfindən nəninki hərbi təyinatı üzrə, o cümlədən mülki infrastruktur təyinatlı ərazilərdə, işıq xəttləri, kanal ətrafı, yol ayrıcları, həyətyanı sahələrin girişləri, məzarlıqlara, çay kənarlarına, kənd və qəsəbə içi cığırlara basdırılmaqla mülki şəxslərin həyatına ciddi şəkildə təhlükə törədir. Erməni mina terroru demək olar ki, hər həftə günahsız Azərbaycan vatandaşlarının həyatına son qoyur və iki ölkə arasındakı sülhü təhlükə altında saxlayır.

Xüsusilə vurğulanmalıdır ki, 2020-ci ilin 10 noyabr razılaşması ilə döyüş əməliyyatları dayandırılandan bu günə qədər Ermənistan silahlı qüvvələrinin basdırdıqları minaların partlaması nəticəsində hərbi qulluqçu və mülki şəxs olmaqla ümumilikdə 295 nəfər mina qurbanlarından 51 nəfəri həlak olub, 244 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Son bir həftə ərzində 3 mina insidenti baş verib ki, nəticədə 5 nəfər mina qurbanına çevrilib.

Bu bəyanatın əsas məqsədi Azərbaycanda mövcud çirklənmənin və vəziyyətin təsvirini Mina Aksiyasında iştirak edən və bu sahə üzrə çalışan beynəlxalq təşkilatların, hökümətlərin və ictimaiyyətin diqqətinə çatdırmaq və beynəlxalq ictimaiyyəti regionda sülhün və dayanıqlı inkişafın dəstəklənməsi üçün lazımi tədbirlərin görülməsinə səsləməkdir. Beynəlxalq Avrasiya Mətbuat Fondu dünya insanını Azarbaycanın qlobal mina probleminə biganə qalmamağa və onun həllində öz dəstəyini göstərməyə çağırır”.

# Masallıda suvarma sistemləri təkmilləşdirilir

***Masallıda torpaq kanallarda lildən təmizlənmə işləri aparılır, kanallara beton üzlüklər vurulur.***



Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndəsi Dilqəm Şərifov bildirib ki, 46 milyon kubametr həcmində olan Viləşçay su anbarında hal - hazırda 38 milyon kubametr su yığılıb. Buna səbəb bu il yağışların, sel sularının olmamasıdır. Viləşçay su anbarı məcra tipli anbar olduğundan bura su Viləş çayından və Motal çaydan daxil olur. Masallı rayonunda Viləşçay su istismar idarəsi tərəfindən 10 min 131 hektar əkin sahəsi suvarma suyu verilir. Bunun 9 min 982 ha Viləşçay su anbarı vasitəsilə, qalanı isə Babaser və kiçik sututarlar, subartizianlar vasitəsilə təmin olunur.

Rayonun Xırmandalı kəndində 60 - cı illərdən bağlı olan “Salyan yolu” adlanan ərazidən 10 km uzunluğunda açıq torpaq kanalı qazılır. Bu kanlal vasitəsi alternativ su mənbəyi kimi istifadə olunacaq. Hal - hazırda Viləşçay su anbar istismar idarəsinin texnikaları vasitəsilə lildən təmizlənmə işləri aparılır. Burada suyun gəlişi, kəndin əkin sahələrində və heyvandarlığın inkişafında çox rolu olmağı gözlənilir. İşlərin bir həftə, 10 gün ərzində başa çatdırılması nəzərdə tutulub.

Qeyd edək ki, Viləşçay su anbarının balansında olan 3 nömrəli qapalı diametri 1020 mm - lik boru kəmərində metal boru kəmərində 700 m uzunluğunda əsaslı təmir işləri aparılmış və ya yenisi ilə əvəz edilmişdir. Qapalı şəbəkənin 250 - 300 hektar əkin sahəsində cari təmir işləri yekunlaşıb və köhnə borular yeni borularla əvəz olunub. 438 km açıq torpaq kanallardan, bu ilin birinci rübündə 53 km - i lildən təmizlənərək, qazılıb, əhalinin istifadəsinə verilmişdir.

***Hüseyn***

# Bu şəxslər dövlət hesabına vəkillə təmin olunacaq



***Vəkilin prosesdə dövlət hesabına iştirakı qaydası müəyyənləşir. Bu, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin iclasında müzakirəyə çıxarılan və plenar iclasa tövsiyə edilən Mülki Prosessual Məcəlləyə təklif edilən dəyişiklikdə əksini tapıb.***

Layihəyə əsasən, bu Məcəllə ilə vəkilin prosesdə məcburi iştirakı tələb olunduğu hallarda işdə iştirak edən şəxslərin vəkilin xidmətlərini ödəmək üçün kifayət qədər vəsaiti olmadıqda, işdə iştirak edən şəxslərin yazılı müraciəti əsasında məhkəmə aktını qəbul etmiş məhkəmə dövlət hesabına vəkilin prosesdə iştirakını təmin edəcək.

Birinci və apellyasiya instansiya məhkəmələrində mülki işlər üzrə məhkəmə icraatında maraqlarının təmsil olunması və prosessual hüquqlarının həyata keçirilməsi məqsədilə peşəkar hüquqi yardıma ehtiyacı olan, lakin kifayət qədər vəsaiti olmayan şəxsin dövlət hesabına vəkil ilə təmin olunması məsələsini məhkəmə həll edir. Bu işlərə, məhkəməyə müraciət etmək üçün hüquqi yardıma ehtiyacı olan, lakin kifayət qədər vəsaiti olmayan şəxsin müraciətinə əsasən vəkil qurumunun ərizəsi əsasında həmin qurumun yerləşdiyi yer üzrə rayon (şəhər) məhkəməsi, məhkəmə icraatı zamanı isə işdə iştirak edən şəxsin yazılı müraciəti əsasında işə baxan məhkəmə tərəfindən baxılır.

Bu Məcəllədə nəzərdə tutulmuş hallarda məhkəmə bu Məcəllənin 67-1.4-cü maddəsində göstərilən şəxslərin(orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş və işləməyən, eləcə də 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər, insan alverinin qurbanları, məişət zorakılığından zərər çəkmiş şəxslər, valideynini itirmiş və ya valideyn himayəsindən məhrum olunmuş uşaqlar, ünvanlı dövlət sosial yardımı alan ailələrin üzvləri, müvafiq icra hakimiyyəti orqanında işsiz kimi qeydiyyatda olan şəxslər, maddi vəziyyəti və orta aylıq gəlirinin cari il üçün yaşayış minimumundan əhəmiyyətli dərəcədə aşağı olması məhkəmə tərəfindən qiymətləndirilən digər şəxslər), habelə vəkilin xidmətlərini ödəmək üçün kifayət qədər vəsaiti olmayan işdə iştirak edən digər şəxslərin vəkil tərəfindən göstərilən hüquqi yardım haqqını ödəməkdən azad edilməsi və ödəmənin Azərbaycan Respublikasının dövlət büdcəsi vəsaiti hesabına həyata keçirilməsi və ya bundan imtina barədə əsaslandırılmış qərardad qəbul edəcək.

Bu Məcəllədə nəzərdə tutulmuş hallarda məhkəmə iddia tələbinin kifayət qədər əsaslılığına dair ilkin sübutların mövcudluğunu nəzərə alaraq, aşağıdakı şəxslərin vəkil tərəfindən göstərilən hüquqi yardım haqqını ödəməkdən azad edilməsi və ödəmənin Azərbaycan Respublikasının dövlət büdcəsi vəsaiti hesabına həyata keçirilməsi və ya bundan imtina barədə əsaslandırılmış qərardad qəbul edir:

- orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş və işləməyən, eləcə də 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər;
- insan alverinin qurbanları, məişət zorakılığından zərər çəkmiş şəxslər;
- valideynini itirmiş və ya valideyn himayəsindən məhrum olunmuş uşaqlar;
- ünvanlı dövlət sosial yardımı alan ailələrin üzvləri;
- müvafiq icra hakimiyyəti orqanında işsiz kimi qeydiyyatda olan şəxslər;
- maddi vəziyyəti və orta aylıq gəlirinin cari il üçün yaşayış minimumundan əhəmiyyətli dərəcədə aşağı olması məhkəmə tərəfindən qiymətləndirilən digər şəxslər.

Yuxarıda qeyd olunan şəxslərin müraciətinə əsasən vəkil qurumunun ərizəsinə daxil olduğu vaxtdan 15 gün müddətində, müraciət müvəqqəti təminat tədbirlərinin tətbiqi ilə bağlı olduqda isə təxirə salınmadan baxır. Ərizəyə baxılmasının nəticəsi barədə qərardaddan bu Məcəllə ilə müəyyən edilmiş qaydada şikayət verilə bilər.

Məhkəmə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məbləğdə ödənilmiş vəsaitin iddianın təmin edilmiş hissəsinə mütənasib olaraq əleyhinə məhkəmə qərarı çıxarılmış digər şəxsdən tutularaq dövlət büdcəsinə ödənilməsini iş üzrə yekun qərarında qət edə bilər.

# DYP alternativ yolları açıqladı - Sürücülərin nəzərinə

***Formula-1 Azərbaycan Qran Prisi ilə əlaqədar Baş Dövlət Yol Polisi İdarəsi sürücülərə müraciət edib.***




İdarədən "Unikal"a bildirilib ki, sürücülərdən "Azneft" və "Neftçilər" dairəsinə alternativ kimi Bakı-Salyan yolunun 14-cü kilometrliyindən Lökbatan dairəsi istiqamətində üçüncü kənar dairəvi yolla "20 Yanvar" və ya Yeni Yasamal ərazisindən keçməklə hərəkət etmələri xahiş olunur.

Eyni zamanda 20-ci sahə, Bayıl qəsəbəsində yaşayanlardan qəsəbənin daxili yolları ilə Qurban Abbasov küçəsindən keçməklə Teymur Elçin, Mehdi Hüseyn və Lermontov küçələri ilə mərkəzə doğru hərəkət etmələri tövsiyə olunur.

Bununla yanaşı, yol hərəkəti iştirakçılarından yarışın keçirildiyi müddət ərzində fərdi minik avtomobillərindən mümkün qədər az istifadə etmələri, şəhərin mərkəzi hissəsinə yalnız ictimai nəqliyyat vasitələri ilə hərəkət etmələri xahiş edilir.

Qeyd edilib ki, DYP-nin müraciəti yarışla əlaqədar bəzi küçə və prospektlərdə hərəkətin məhdudlaşdırıldığını nəzərə alaraq paytaxtın cənub qapısında yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və nəqliyyat sıxlığının qarşısının alınması məqsədi daşıyır.



# Zərifə xanım Əliyevanın xatirəsi anıldı

***Nərimanov rayonunda görkəmli oftalmoloq alim, Əməkdar elm xadimi, akademik Zərifə Əliyevanın anadan olmasının 100 illik yubileyinə həsr edilən xatirə tədbiri keçirilib.***

"Unikal" xəbər verir ki, tədbirdə Nərimanov rayon rəhbərliyi, Azərbaycan Respublikası Milli Məclisinin üzvləri, incəsənət, səhiyyə, elm xadimləri və ziyalılar iştirak ediblər.

İlk öncə Fəxri xiyabanda müasir Azərbaycan dövlətinin qurucusu, Ümummilli lider Heydər Əliyevin və görkəmli oftalmoloq alim, akademik Zərifə Əliyevanın xatirəsi anılıb, məzarları önünə gül dəstələri düzülüb.

Tədbirdə çıxış edən Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı Elgin Həbibullayev, Azərbaycan Respublikası Milli Məclisinin vitse-spikeri Adil Əliyev, Azərbaycan Respublikasının xalq artisti Faiq Sücəddinov və digər natiqlər Zərifə xanım Əliyevanın Azərbaycan xanımının ən gözəl keyfiyyətlərini özündə birləşdirən gözəl və qayğıkeş ana, cəfakeş və sədaqətli ömür gün yoldaşı, həm də Azərbaycan tibb elminə böyük töhfələr verən, görkəmli ziyalı alim olduğunu bildirdilər.

Tədbirdə Akademik Zərifə xanım Əliyevanın həyat və fəaliyyətinə həsr olunan videoçarx nümayiş olunub.

Xatirə tədbiri tanınmış incəsənət xadimlərinin çıxışları ilə yadda qalıb.

# Vətən üçün yaşanan ömür

***Araz İbadlı xalqımızın qeyrət, hünər tarixi olan İkinci Qarabağ müharibəsində Vətən yolunda can qoyub, 21 yaşında şəhidlik zirvəsinə ucaldı. Beləcə, Lənkəran rayonunun Gəgiran kəndində Babalı kişinin halal ailə ocağında boya-başa çatan Araz bütün Azərbaycanın qürur yerinə, iftixar mənbəyinə çevrilir.***

Araz lap uşaq yaşlarında Vətənin müqəddəsliyini dərk edir. Odur ki, erməni dığaların əzəli yurd yerimiz Qarabağın ədalətsiz işğalını heç cür vicdanına sığışdıra bilmir. Məktəbi bitirib əsgərliyə gedəndə deyir ki, ermənilərin qarşısında aciz durmaq bizə yaraşmır. Vətən torpaqların murdar düşmən tapdağından qurtulması mərd oğlanların qeyrətinə qalır. Qismətim olsa mən də yağı ilə son nəfəsimə qədər döyüşməyə hazıram.

Vətənini canından əziz bilən Araz cəbhə bölgəsində ona vicdanla xidmət edir. Komandirlərin tapşırıqlarını vaxtında, düzgün yerinə yetirir. Təlimlər zamanı əla döyüşçü keyfiyyətlərini göstərir. Məqamı çatanda müharibə meydanında düşməni əzmək üçün həmişə öyrənməyə can atır.

Hər an silaha sarılıb müharibə meydanına atılmaq üçün qəlbi alışıb yanan Araz 2020-ci ilin sentyabrında arzusuna çatır. Qələbə sorağı bir-birindən çətin, qeyri-bərabər döyüşlərdən gəlir. Hər qarış torpaq uğrunda mərdliklə vuruşur. Ordumuzun ard-ardına qazandığı uğurlarını görəndə qələbəmizin lap yaxında olduğuna tam inanır, növbəti gün döyüşə pəhləvan kimi girir. Nəticədə erməni dığaları onu qarşısında tab gətirə bilmir, ciddi itki verə-verə rüsvayçı şəkildə qaçmağa üz qoyurlar. Lənkəranın igid oğlu haqq savaşımızda oktyabrın 9-na qədər düşmənlə mərdliklə vuruşur, onlarla canlı qüvvəsini, neçə-neçə hərbi texnikasını məhv edir. Füzuli rayonu istiqamətində gedən ölüm-dirim müharibədə yağı tərəfindən atılan artilleriya atəşi nəticəsində müqəddəs şəhidlik zirvəsinə ucalır. Adı Azərbaycanın yeni zəfər tarixə yazılmaqla ölməzlik qazanır. Nə qədər xalqımız var, Araz da yaşayacaq.

Ölkə başçısının müvafiq sərəncamları əsasında Araz İbadlı ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə" və digər medallarla təltif olunub.

***Zəfər Orucoğlu, AJB üzvü***



## "Tramp demokratiya üçün təhlükədir" - Bayden

***ABŞ prezidenti Co Bayden keçmiş dövlət başçısı Donald Trampın demokratiya üçün təhlükə yaratdığını bəyan edib.***

"Unikal" xəbər verir ki, o, bu barədə yerli KİV-ə müsahibəsində deyib.

"Mən onu yaxşı tanıyıram və onun demokratiyamız üçün nə qədər təhlükə olduğunu bilirəm", - o, vurğulayıb.

## Bu ölkədə orta məktəb şagirdləri üçün hərbi təlimlər keçirilir

***Bolqarıstan hökuməti 9-10-cu siniflərdə məktəblilər üçün hərbi hazırlıq dərslərinin keçirilməsini nəzərdə tutan qərarı təsdiqləyib.***

"Unikal" xəbər verir ki, bu barədə "The Sofia Globe" məlumat yayıb.

Qərar "Silahlı Qüvvələrin ehtiyatı haqqında" qanuna 2020-ci ildə qəbul edilmiş dəyişikliklərə əsaslanıb.

Hökumət izah edib ki, sənəd 9-10-cu sinif şagirdlərinin təhsilini, eləcə də bu ilin sentyabrından həyata keçirilən şagirdlərin təhsili üçün hərbi kadrların və mülki mütəxəssislərin hazırlanmasını tənzimləyir.

Kurs ildə beş dərs saatından ibarət olacaq. Şagirdlər vətənin müdafiəsi, hərbi xarakterli böhranlı vəziyyətlərdə silahlı qüvvələr tərəfindən əhaliyə yardım göstərilməsi, ordunun yaranma tarixi və vəzifələri haqqında nəzəri məlumatlar alacaqlar.

***Gülayə Mecid***

## Moskvada üçtərəfli görüş barədə razılıq əldə olunub



***"Ermənistan və Azərbaycan xarici işlər nazirləri Moskvada görüşə bilər".***

"Unikal" xəbər verir ki, bunu Rusiya XİN rəsmisi Mariya Zaxarova jurnalistlərə açıqlamasında deyib.

"Ermənistan, Rusiya və Azərbaycan xarici işlər nazirlərinin üçtərəfli görüşünə dair razılaşma artıq var", - Zaxarova bildirib.

O, görüşün nə vaxt keçiriləcəyi açıqlamayıb.

## "Ermənistana sülh əli uzatdıq" - Hulusi Akar

***"Soyqırımı iddiaları Ermənistanla Türkiyə arasında münasibətlərin normallaşması istiqamətindəki ən böyük maneədir".***

"Unikal" Türkiyə mətbuatına istinadən xəbər verir ki, bunu Türkiyənin milli müdafiə naziri Hulusi Akar deyib.

O bildirib ki, Azərbaycan 30 illik işğaldan sonra "bəsdir artıq" deyərək torpaqlarını azad etdi: "Bundan sonra biz Ermənistana sülh əli uzatdıq. Arzumuz Ermənistanın ən qısa vaxtda uzatdığımız sülh əlini tutması, belə səhv addımlarla xalqının gələcəyinə mane olmamasıdır".

# Sülhməramlıların yeni komandiri dinc azərbaycanlıların qətlində iştirak edibmiş

***Qarabağdakı rus sülhməramlılarının yeni rəhbəri, general-polkovnik Aleksandr Lentsov dinc azərbaycanlıları qətlə yetirib.***

"Unikal" xəbər verir ki, bu iddia ilə "AZfront" Teleqram kanalı məlumat yayıb.

Lentsovun Çeçenistan, Suriya, Cənubi Osetiya və Ukraynada döyüş əməliyyatlarında iştirakı ilə tanındığını xatırladan kanal Rusiya Federasiyası Müdafiə Nazirliyinin



saytına istinadla yazır:

"Aleksandr Lentsov 1989-cu ildə M.V.Frunze adına Hərbi Akademiyasını bitirdikdən sonra Hərbi Hava Qüvvələrində alay qərargah rəisi, alay komandiri, müavini və bölmə komandiri vəzifələrində xidmət edib.

1990-cı ildə Lentsov SSRİ Silahlı Qüvvələrinin 98-ci diviziyasına daxil olan 331-ci qvardiya hava-desant alayının komandiri olub. Həmin ilin yanvarında bu diviziya Bakının və Azərbaycanın digər rayonlarının dinc əhalisinin qırğınında iştirak edib".

# "Ermənistanın 10 milyard dollar borcu var" - Paşinyan

***"Ermənilər üçün maraqlı və həssas bir mövzu var. Deyirlər ki, bizim 10 milyard dollar borcumuz var".***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan hökumətin iclasında deyib.

Onun sözlərinə görə, bu, yüngül borcdur. "Biz vətəndaşlarımıza başa salmalıyıq ki, ÜDM-imizlə müqayisədə çox cüzi borcumuz var. Əslində Ermənistan 46 faiz yüngül borc yükü olan ölkə hesab olunur. Biz məsələyə bu məntiqlə baxmalıyıq, çünki ölkələr yüngül, orta borc və yüksək borcu olan ölkələr kimi təsnif edilir. İndi Ermənistan iqtisadi artımına görə yüngül borcu olan ölkədir", - o əlavə edib.

***Gülayə Mecid***



# "Rusiya vəziyyəti həll etmək üçün lazımi səylər göstərir" - Zaxarova

***Rusiya Laçın dəhlizi ətrafında yaranmış vəziyyəti həll etmək üçün lazımi səylər göstərir.***

"Unikal" xəbər verir ki, bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova həftəlik brifinqdə bildirib.

XİN nümayəndəsinin sözlərinə görə, Rusiya Xarici İşlər Nazirliyinin aprelin 24-də verdiyi bəyanatda öz mövqeyini açıq şəkildə ifadə edib: "Hazırda Rusiya sülhməramlı



qüvvələri tərəfindən Laçın dəhlizi ətrafında vəziyyətin nizamlanması və 9 noyabr 2020-ci il tarixli Üçtərəfli Bəyanata qayıtmaq üçün həm yerdə, həm də siyasi səviyyədə bütün lazımi səylər göstərilir".

Zaxarova əlavə edib ki, Moskva rəsmi İrəvanın da qarşılıqlı məqbul həll yollarının axtarışına öz töhfəsini verməsini prinsipial olaraq vacib hesab edir.

***Ağarza Elçinoğlu***

# Ukraynanın Putinə sui-qəsd cəhdi uğursuz oldu

***Ukrayna xüsusi xidmət orqanları aprelin 23-də Rusiya prezidenti Vladimir Putini kamikadze PUA-sı ilə öldürməyə çalışıb. Lakin sui-qəsd cəhdi uğursuz olub.***

"Unikal" xəbər verir ki, bu barədə Almaniyanın "Bild" nəşri məlumat yayıb. Məlumata görə, UJ-22 pilotsuz təyyarəsi bazar günü günorta Ukraynadan havaya qalxıb və bazar ertəsi qəzaya uğrayıb. Nəşr qeyd edir ki, bu, uçuş məsafəsi 800 km-ə qədər olan ən müasir Ukrayna dronudur. Onun təyinatı Moskva yaxınlığında, Ukraynadan 500 km aralıda Moskva vilayətinin Luxovitski rayonundakı Rudnevo Sənaye Parkını vurmaq olub.

Həmçinin, məqalədə Ukrayna xüsusi xidmət orqanlarına yaxınlığı ilə bilinən aktivist Yuri Romanenkonun sui-qəsd cəhdini təsdiqləyən məktubuna da yer verilib. Məktubda Ukrayna kəşfiyyatçılarında Vla-



dimir Putinin də həmin gün Rudnevo Sənaye Parkına gedəcəyi haqqında məlumatın olduğu bildirilib.

Xatırladaq ki, Rusiyanın Noqinsk şəhərinin sakini aprelin 24-də evinin yaxınlığındakı meşədə Ukrayna pilotsuz təyyarəsini tapıb.

Vurulan pilotsuz təyyarənin uzunluğu 3,5 metr olan Ukrayna istehsalı olan UJ-22 Airborn olduğu üzə çıxıb. Pilotsuz uçan aparatın içərisində hər birinin çəkisi 570 qram olan 30-a yaxın briket və içərisində partlayıcı maddə aşkar edilib.

***Gülayə Mecid***

# Premyer Liqa klubları cərimələndi




***AFFA İntizam Komitəsinin iclası keçirilib.***

"Unikal" xəbər verir ki, iclasda Premyer Liqanın XXXI turunun oyunları ilə bağlı aşağıdakı qərarlar qəbul edilib:

"Qarabağ" - "Zirə" oyununda "Qarabağ"ın 4 futbolçusu sarı vərəqə ilə cəzalandığına görə "Qarabağ" klubu 800 manat cərimə edilib.

"Qarabağ" - "Zirə" oyunu bitdikdən sonra meydançaya kənar şəxslər daxil olduğuna görə "Qarabağ" klubu 1600 manat cərimə edilib.

"Qarabağ" - "Zirə" oyunu bitdikdən sonra "Zirə" klubunun "A buraxılışı" olmayan nümayəndələrinin meydançaya daxil olmasına görə "Zirə" klubu 800 manat cərimə edilib.

"Qarabağ" - "Zirə" oyununda "Zirə" klubu İntizam Məcəlləsinin 50.7 bəndini pozduğuna görə "Zirə" klubu 2000 manat cərimə edilib.

"Səbail" - "Neftçi" oyununda "Səbail"in 4 futbolçusu sarı vərəqə ilə cəzalandığına görə "Səbail" klubu 800 manat cərimə edilib.

"Sumqayıt" - "Qəbələ" oyununa Təcili Tibbi Yardım maşını təyin olunan vaxtdan gec gəldiyinə görə "Sumqayıt" klubu 400 manat cərimə edilib.

"Sumqayıt" - "Qəbələ" oyununda meydançaya kənar əşyaların atılmasına görə "Sumqayıt" klubu 1600 manat cərimə edilib.

"Sumqayıt" - "Qəbələ" oyununda "Qəbələ"nin 6 futbolçusu sarı vərəqə ilə cəzalandığına görə "Qəbələ" klubu 800 manat cərimə edilib.

# Şəhid İmaməli Əhədzadənin xatirəsinə idman turniri

***İmaməli Şəvəqqət oğlu Əhədzadə xalqımıza zəfər sevincini bəxş edən İkinci Qarabağ müharibəsində qəhrəmanlıq göstərərək tarix yazan igidlərimizdəndir. Lənkəranlılar milyonların ürəyində özünə əbədi məkan quran qəhrəman oğlu ilə fəxr edir, hər yerdə, hər zaman onun adını uca tuturlar.Bu günlər də isə Lənkəran Şəhər İcra Hakimiyyətinin təşkilati dəstəyi sayəsində Cənub Regional Boks Mərkəzində şəhid İmaməli Əhədzadənin xatirəsinə həsr olunan idman turniri keçirilib.***

Lənkəran Şəhər İcra Hakimiyyətinin əməkdaşlarının, şəhid ailələrinin, idmançıların və ictimaiyyətin nümayəndələrinin iştirakı ilə baş tutan tədbir öncəsi şəhid İmaməli Əhədzadənin məzarı ziyarət olunub. Rəsmi hissədə Vətən naminə canından keçən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla anılıb və Dövlət Himni oxunub. Çıxışlarda bildirilib ki, Azərbaycan Ordusunun qəhrəman əsgər və zabitlərin şücaəti, cəsurluğu, vətənpərvərliyi və əzmi sayəsində xalqın ləyaqəti, milli qüruru bərpa edilib. Qalib xalq kimi vüqarlı, məğrur, başı dik və alnı açıq şəkildə məhz şəhidlərin, qazilərin və müharibə veteranlarının sayəsində azad etdiyimiz torpaqlarda əbədi yaşayacağıq. Vətən sevgisinin zirvəsində olan şəhidlərin adlarının əbədiləşdirilməsi, xatirələrinin yad olunması hər zaman diqqət mərkəzindədir . Dövlət başçısı cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva bu məsələyə olduqca həssas yanaşırlar.




Natiqlər onu da vurğulayıb ki, qələbəmizi canları hesabına qazanan şəhidlərin xatirəsinin əziz tutulması hər birimizin mənəvi borcudur. 44 günlük haqq savaşında xalq olaraq göstərdiyimiz birliyi bu gün də onlara qarşı diqqət və qayğıda, eləcə anım mərasimlərində göstəririk. Birlik rəmzimiz olan şəhidlər Lənkəran rayonunda da həmişə ehtiramla anılır.

Çıxışlar bitdikdən sonra idman turnirinə start verilib. Karate və digər döyüş növləri üzrə təşkil olunan klublar arası açıq turnirə Lənkəran, Astara, Cəlilabad, Yardımlı, Biləsuvar və Beyləqan rayonlardan 9 komanda qatılıb. 100-ə yaxın idmançı qələbə uğrunda mübarizə aparıb.

Yekunda yarışda qalib gələn idmançılara medal və diplomlar təqdim edilib.

***Zəfər Orucoğlu,***
***AJB üzvü***

# Allegri: "Yuventus" ilk hissədə yuxuya getdi"

***"Yuventus"un baş məşqçisi Massimiliano Allegri İtaliya kubokunun 1/2 finalında "İnter"ə məğlubiyyəti (0:1, ilk oyun - 1:1) şərh edib.***

Qol.az xəbər verir ki, o, turnirdə mübarizəni dayandırmaları ilə bağlı deyib: "Yuventus birinci hissədə, xüsusən ilk 15-ci dəqiqədə yuxuya getdi. Bundan sonra vəziyyət yaxşılaşdı, lakin qapıya kifayət qədər zərbə vurmadıq. "İnter" fiziki cəhətdən çox hazırlıqlı komandadır.

A seriyasında keçirdiyimiz son 5 matçın 4-də uduzduğumuz və həmçinin İtaliya Kubokundan aşağı liqamız olduğu üçün gücümüzü bərpa etməliyik. Sabahdan qollarımızı çırmalıyıq. Biz Avropa Liqasının yarımfinalında oynayırıq və "Milan" və "Roma"nı geridə saxlamaq üçün A Seriyasında mövqeyimizi qorumalıyıq".



# "Neftçi" - "Qarabağ" oyununun hakimləri bəlli oldu

***Futbol üzrə Azərbaycan Premyer Liqasında XXXII turun təyinatları açıqlanıb.***



"Unikal" xəbər verir ki, Peşəkar Futbol Liqasının rəsmi saytına istinadən xəbər verir ki, "Neftçi" - "Qarabağ" görüşünü İnqilab Məmmədov idarə edəcək.

29 aprel (şənbə)
16:00. "Kəpəz" - "Sumqayıt"
Hakimlər: Tural Qurbanov, Vüsal Məmmədov, Zöhrab Abbasov, Nicat İsmayıllı
Hakim-inspektor: Babək Quliyev
AFFA nümayəndəsi: Rüfət Əmirov
Qəbələ şəhər stadionu
18:30. "Sabah" - "Şamaxı"
Hakimlər: Fərid Hacıyev, Cəmil Quliyev, Teymur Teymurov, Rəvan Həmzəzadə
Hakim-inspektor: Ömər Paşayev
AFFA nümayəndəsi: Elçin Məmmədov
"Bank Respublika Arena"
1 may (bazar ertəsi)
20:00. "Zirə" - "Turan Tovuz"
Hakimlər: Rauf Cabarov, Elşad Abdullayev, Eyyub İbrahimov, Vüqar Həsənli
Hakim-inspektor: Feyzulla Feyzullayev
AFFA nümayəndəsi: Elman Musayev
Zirə İdman Kompleksinin stadionu
17:30. "Qəbələ" - "Səbail"
Hakimlər: Rauf Allahverdiyev, Cavanşir Yusifov, Şirmamed Mamedov, Kamranbəy Rəhimov
Hakim-inspektor: Gülağa Cabarov
AFFA nümayəndəsi: Eldəniz Musayev
Qəbələ şəhər stadionu
02 may (çərşənbə axşamı)
20:00. "Neftçi" - "Qarabağ"
Hakimlər: İnqilab Məmmədov, Namiq Hüseynov, Pərvin Talıbov, Rəşad Əhmədov
Hakim-inspektor: Barış Şimşek
AFFA nümayəndəsi: Elgiz Abbasov
"Bakcell Arena", 20:00

# Ronaldo kubokla vidalaşmaları haqda



***"Əl Nəsr"in futbolçusu Kriştiano Ronaldo Səudiyyə Ərəbistanı kubokunda mübarizəni dayandırmalarını şərh edib.***

Qol.az xəbər verir ki, bu barədə 38 yaşlı hücumçu öz Tvitter hesabında paylaşım edib. Ronaldo yazıb: "Biz mübarizəni davam etdiririk və növbəti matçlara hazırlaşmaq üçün çox çalışırıq".

Qeyd edək ki, "Əl-Nəsr" ölkə kubokunun yarımfinalında "Əl-Vəhda"ya uduzub (0:1). Komanda Səudiyyə Ərəbistanı çempionatında isə sona 6 tur qalmış 53 xala 2-cidir. Onlar lider "Əl-İttihad"dan 3 xal geri qalırlar.

# Qvardiola: "Qarşıdakı 3 oyun çox şeyi həll edəcək"

***"Mançester Siti"nin baş məşqçisi Xosep Qvardiola İngiltərə Premyer Liqasının 33-cü turunda "Arsenal"a 4:1 hesabı ilə qalib gəlmələri haqqında danışıb.***

Qol.az klubun saytına istinadən xəbər verir ki, mütəxəssis komandasının oyunundan razı qaldığını deyib:

"Məndə belə bir hiss var ki, qarşıdakı 3 oyun çox şeyi həll edəcək. Oyundan-oyuna nə baş verəcəyini görəcəyik. Bu üç oyun həqiqətən vacibdir: Görək, üzərimizə düşəni edə biləcəyikmi. Bu gün bütün komandalar inkişaf ediblər. İş ondadır ki, biz hazırda "Arsenal"dan 2 xal geridəyik.

Həqiqətən yaxşı matç keçirdik. Futbolçularımı təbrik edirəm. Bu qələbə çox vacibdir".

Qeyd edək ki, növbəti turda "Mançester Siti" səfərdə London "Fulhem"i ilə qarşılaşacaq.